## Rusiya hərbçiləri azərbaycanlını əsir götürüb

Nizami Rzayev hazırda əsirlərin həbsxanasında saxlanılır



**Rusiya hərbçiləri Ukrayna ordusunun azərbaycanlı hərbçisini əsir götürüb.**

"Report"un Şərqi Avropa bürosunun əldə etdiyi məlumatına görə, bu, 17 sentyabr 2000-ci il təvəllüdlü Rzayev Nizami Məkani oğludur.

Ukrayna Silahlı Qüvvələrinin dəniz piyadalarında xidmət etmiş Rzayev Nizaminin Donetsk vilayətinin Mariupol şəhəri istiqamətində əsir düşdüyü bildirilir. Onun hazırda Rusiyada əsirlərin saxlanıldığı həbsxanada olduğu ehtimal edilir.



## Türkiyədə zəlzələ bölgəsində 62 minə yaxın bina sökülməlidir

**Türkiyədə zəlzələ bölgəsində indiyədək 481 685 bina araşdırılıb.**

APA TRT Haber-ə istinadən xəbər verir ki, bu barədə Türkiyənin ətraf mühit və şəhərsalma naziri Murat Kurum məlumat verib.

Onun sözlərinə görə, bunlardan 61 722 binanın təcili sökülməli olduğu məlum olub. Eyni zamanda bildirib ki, 19 917 bina orta dərəcədə zədələnib.



## Sürüşmə zonaları ilə bağlı son vəziyyət açıqlandı

Lənkəran və Lerikdə sürüşmə zonalarının aktivləşdiyi müşahidə olunub

**Mövsümi xarakterli atmosfer çöküntülərinin intensivliyinin artması cənub bölgəsində lokal sürüşmə zonalarının aktivləşməsinə səbəb olub.**

Bunu Trend-in sorğusuna cavab olaraq Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev bildirib.

Onun sözlərinə görə, əsasən Lənkəran və Lerikdə lokal sürüşmə zonalarının aktivləşdiyi müşahidə olunub. "Bizə daxil olan müraciətlər əsasında həmin ərazilərdə monitorinqlər keçirilib, müvafiq ekspert rəyləri hazırlanaraq müvafiq orqanlara təqdim olunub. Mütəmadi olaraq ölkə ərazisində sürüşmə zonalarının monitorinqi aparılır. Bakı şəhərində bugünə olan məlumata görə ümumilikdə sürüşmə zonalarında ciddi aktivləşmə qeydə alınmayıb. Lakin Nübar yaşayış massivində və Masazır sahəsində zəif dinamik aktivləşmə müşahidə olunur.

(səh.3)

❒ № 31 (5792) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 fevral 2023-cü il (şənbə)



## Millət vəkilləri xalqın sözünü dedi

Türkiyəyə təyyarə biletləri həddindən artıq bahadır

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda gündəliyə salınmış 31 məsələ müzakirə olunub.**

Öncə Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə fevralın 6-da Türkiyədə zəlzələdə həlak olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Sədr qeyd edib ki, deputatlar hər gün Türkiyə deputatları ilə əlaqədədir: "Mən də hər gün faktiki olaraq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla əlaqə saxlayıram. Türkiyə ilə bir yerdə olmağa, dəstəyə davam edəcəyik".

(səh.5)

## Azərbaycanda media subyektləri vergilərdən azad edilir



**Azərbaycanda media subyektləri vergilərdən azad edilir.**

Bununla bağlı Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Vergi Məcəlləsinə dəyişiklik müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin, habelə onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımların gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif olunur. Eyni zamanda media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də əlavə dəyər vergisindən azad edilir.

(səh.2)

# Brüssel sülh prosesi yenə gündəmdədir

## Prezident İlham Əliyevin Münxendə Avropa İttifaqı Şurasının Prezidenti ilə görüşü olub



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.**

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar və Brüssel sülh prosesi ətrafında müzakirələr aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini qeyd etdi. Şarl Mişel Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərini bundan sonra da davam etdirəcəyini bildirdi.

Söhbət zamanı, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

# "Rədd olsun diktatura!"

## Münxendə İran rejiminə qarşı kütləvi etiraz aksiyası keçirilib



**Fevralın 17-də Almaniyanın Münxen şəhərində yaşayan iranlılar şəhərin mərkəzi küçələrində İran rejiminə qarşı kütləvi etiraz aksiyası keçiriblər.**

Azərtac xəbər verir ki, aksiya iştirakçıları "Diktatora ölüm!", "Xamneyiyə ölüm!", "Rədd olsun diktatura!", "Qadınlara azadlıq!" kimi şüarlar səsləndiriblər.

Xatırladaq ki, bu gün İranın böyük şəhərlərində də kütləvi aksiyalar davam edib və bənzər şüarlar səsləndirilib.

Ötən ilin sentyabrından başlayan kütləvi aksiyaların artıq 6 aydır həbslərə və edamlara baxmayaraq davam etməsi İranda daxili vəziyyətin heç də ürəkaçan olmadığını deməyə əsas verir.

(səh.2)



## Xankəndidə siyasi qarşıdurma gərginləşəcək

Kreml Araiklə Vardanyan arasında siyasi döyüşü izləmək istəyir

**"Xankəndidə separatçıların "başçısı" Araik Arutyunyan "konstitusiya" dəyişikliyi ilə bağlı qərar qəbul edib. Hərbi vəziyyətdə separatçıların qondarma "prezidentini" "parlament" seçəcək".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik vurğulayıb ki, ilk baxışdan "ümumi razılaşma" prinsipinə söykənən bu addımın əslində Ruben Vardanyanı oyundankənar vəziyyətə salmağa hesablandığı görünür:

(səh.4)

## Bir nəfər ölüb

Azərbaycanda daha 28 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 28 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, xəstəlikdən 1 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 828 320 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 818 090 nəfər müalicə olunaraq sağalıb, hazırda 128 aktiv xəstə var. Bu günə qədər 10 102 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 932, bu günə qədər isə ümumilikdə 7 511 832 test icra olunub.*

## Qarlı hava şəraiti mane olmadı

Bakıdan regionlara gedən avtobuslar həmişəki qrafiklə hərəkət edir



**Bakı Beynəlxalq Avtovağzalı Kompleksi (BBAK) Azərbaycanda müşahidə edilən qarlı hava şəraitində bölgələrə sərnişinlərin çatdırılmasını normal qaydada yerinə yetirir.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib.

Qeyd olunub ki, ölkə ərazisində müşahidə edilən qarlı hava şəraiti ilə əlaqədar Bakı Beynəlxalq Avtovağzal Kompleksindən rayon və şəhərlər istiqamətində hərəkət edən avtobusların qrafikində heç bir dəyişiklik yoxdur.

"Avtobuslar həmişəki qrafiklə hərəkət edir", - deyə məlumatda qeyd olunub.



## Qərbin məqsədi Rusiyanın təsirini azaltmaqdır

Ermənistana gələcək missiyaya alman polislərin də qatılması vəziyyəti gərginləşdirəcək

(səh.4)



## İran yenə ciddi təxribatlara hazırlaşır

ABŞ və onun Yaxın Şərqdəki müttəfiqləri üçün təhdid yaranıb

(səh.4)

# Münhendə böyük uğur

## Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq



**Fevralın 17-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masa keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlət başçısı bildirib ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi.**

Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən Cənub Qaz Dəhlizinin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd edib ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Ötən il Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlət başçısı vurğulayıb ki, enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı bu sənədə uyğun olaraq bundan sonra da genişlənəcək. Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpaolunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırıb. Dövlət başçısı qeyd edib ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi yaşıl enerjinin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq.

Prezident vurğulayıb ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək.

Münhen Təhlükəsizlik Konfransı (MTK) beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirə olunduğu dünyanın ən aparıcı forumu sayılır. Qlobal səviyyədə ən vacib və aktual problemlər üzrə diplomatik təşəbbüslər üçün platforma rolunu oynayır. Konfransın missiyası dövlət və hökumət başçıları, siyasətçilər, parlamentarilər, araşdırma mərkəzləri, özəl sektor, QHT-lər, media və beynəlxalq təhlükəsizlik sahəsində ixtisaslaşan təşkilat və mütəxəssislər arasında davamlı və qeyri-rəsmi dialoq yaratmaqla etimad qurmaq, qlobal və regional problemlərin, münaqişələrin həllinə töhfə verməkdir. MTK əsas konfransla yanaşı, həm tədbir çərçivəsində, həm də il ərzində müxtəlif mövzularda və fərqli regionlarda müzakirə görüşləri təşkil edir. Konfransın ilkin fokusu Trans-Atlantik və Avropa təhlükəsizliyi məsələləri olsa da, son illərdə qlobal əhəmiyyət kəsb edən mövzulara da yer ayrılır, coğrafi şaxələndirmə aparılır. Bir sözlə, Münhen Təhlükəsizlik Konfransı hərtərəfli təhlükəsizlik konsepsiyasını ehtiva edir. Yəni ənənəvi milli və hərbi təhlükəsizlik anlayışları ilə məhdudlaşmayaraq, digər əhəmiyyət kəsb edən iqtisadi, ətraf mühit, humanitar sahələrə də yer ayırır. Münhen Təhlükəsizlik Konfransının builki - sayca 59-cu görüşündə ənənəvi olaraq müasir xarici siyasət və beynəlxalq təhlükəsizliyin ən aktual məsələləri müzakirə edilməkdədir. Hazırkı sessiya MTK-nın yeni sədri səfir Kristof Hoysqenin rəhbərliyi ilə təşkil edilir və indiyədək keçirilmiş sessiyalarla müqayisədə iştirakçı sayına görə ən irimiqyaslı olacağı ilə səciyyələnir. Prezident İlham Əliyevin qatıldığı bu görüşə 800 nəfərdən çox iştirakçı rəsmi dəvət olunub. Konfransda Azərbaycan Prezidenti ilə yanaşı, 40-dan çox dövlət və hökumət başçısı, habelə xarici işlər, müdafiə və digər sahələrə məsul nazirlər iştirak ediblər. Ukraynada davam edən müharibənin birinci ildönümü ərəfəsində təşkil olunan 59-cu Konfransda Ukrayna mövzusunun aparıcı yer tutacağı gözlənilir. Bununla belə, Avropa və onun əsas tərəfdaşı olan Azərbaycan üçün hazırda aktual olan enerji təhlükəsizliyi, yaşıl enerji, Cənubi Qafqazda təhlükəsizlik kimi mövzuların, həmçinin "Qlobal Cənub"a daxil olan Afrika və Asiyanın üzləşdiyi müxtəlif problemlərin də diqqət mərkəzində olacağı şübhəsizdir. Azərbaycan MTK-nın illik görüşlərində müntəzəm olaraq dövlət başçısı və ya digər səviyyələrdə fəal iştirak edir. Münhen Konfransı dedikdə Azərbaycan xalqının yaddaşına həmişəlik həkk olunmuş hadisə - 2020-ci ilin fevral ayında Azərbaycanın dövlət başçısı və Ermənistanın baş naziri arasında keçirilmiş canlı debat gəlir. Azərbaycan və Ermənistan rəhbərləri arasında tarixdə ilk və indiyə qədər yeganə canlı efir debatı olduğu üçün ona maraq da çox böyük idi. Həmin debatda dünyanın gözü qarşısında dövlət başçısı tarixi faktlara, siyasi və beynəlxalq hüquqi sənədlərə əsaslanan tutarlı arqumentlərlə erməni tərəfinin əsassız və savadsız şərhlərinə cavab vermişdi. Tarixi həqiqətin, beynəlxalq hüququn normalarının Azərbaycanın tərəfində olduğunu, dövlətimizin mövqeyinin üstünlüyünü nümayiş etdirmişdi. Bununla da Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdu. Heç şübhəsiz, tarixi debatda Prezident İlham Əliyevin iştirakı elə həmin ilin sonunda Azərbaycanın Vətən müharibəsində qalib gəlməklə öz torpaqlarını geri qaytardığı çətin və şərəfli yolun ən şanlı səhifələrindən biri idi.

**Deputat Vüqar İskəndərov builki Münhen Konfransının da ölkəmiz üçün uğurlu nəticələrlə yadda qalacağını deyib.** Parlament üzvü bildirib ki, hazırda dünyada həm siyasi, həm iqtisadi, həm də hərbi böhran yaşanan vaxtda Azərbaycan öz iqtisadiyyatını dirçəltməklə yanaşı, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri aparır. Torpaqların minalardan təmizlənməsi prosesini həyata keçirir. Eyni zamanda Azərbaycan öz iqtisadi, hərbi qüdrətini, regionda və dünyada nüfuzunu artırır: "Bu gün Avropanın enerji ilə təminatında əsas rollardan birini məhz Azərbaycan oynayır. Bütün bu uğurlara isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, praqmatik siyasət nəticəsində nail olmuşuq. Prezident İlham Əliyevin nüfuzu, həm də Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul edilməsi özünü bir sıra mühüm beynəlxalq tədbirlərdə göstərir. Daha doğrusu, nüfuzlu beynəlxalq tədbirlər zamanı Azərbaycana və dövlətimizin başçısı İlham Əliyevə xüsusi diqqətlə yanaşılır. Bu sırada Münhen Təhlükəsizlik Konfransını (MTK) xüsusilə qeyd etməliyik. Builki Münhen Təhlükəsizlik Konfransına dəvət olunmuş az sayda dövlət başçılarından biri də məhz Azərbaycan Prezidentidir". Deputat əmin olduğunu bildirib ki, builki tədbir də ölkəmiz üçün uğurlu nəticələrlə yadda qalacaq.

**İsmayıl**

**Azərbaycan vətəndaşlarına Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) tərəfindən kütləvi şəkildə giriş vizasının rəsmiləşdirilməsində çətinliklər yaradıldığı, vətəndaşlarımıza giriş qadağaları qoyulduğu barədə xəbərlər həqiqəti əks etdirmir.**




# XİN təkzib etdi

## BƏƏ-nin Azərbaycan vətəndaşlarına giriş qadağaları qoyması xəbərləri yalandır

"Şərq"in məlumatına görə, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) aidiyyəti qurumları tərəfindən Azərbaycan Respublikasının vətəndaşları üçün giriş vizasının rəsmiləşdirilməsinə məhdudiyyətlər tətbiq edildiyi, vətəndaşlarımıza ölkəyə giriş qadağaları qoyulduğu barədə xəbərlərə münasibət bildirərkən deyib.

A.Hacızadə qeyd edib ki, Azərbaycan XİN bu yayılan xəbərlərə aydınlıq gətirilməsi məqsədilə aidiyyəti üzrə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyi, Dubay şəhərindəki Baş Konsulluğu, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı Səfirliyinə müvafiq sorğu göndərib.

"Daxil olmuş məlumata əsasən, Azərbaycan Respublikasının vətəndaşlarına Birləşmiş Ərəb Əmirlikləri tərəfindən kütləvi şəkildə giriş vizasının rəsmiləşdirilməsində çətinliklər yaradıldığı, vətəndaşlarımıza giriş qadağaları qoyulduğu barədə xəbərlər həqiqəti əks etdirmir.

Birləşmiş Ərəb Əmirlikləri tərəfi viza rəsmiləşdirilməsini ölkə qanunvericiliyinin tələblərinə əsasən davam etdirir və viza rəsmiləşdirilməsinə imtinanın yalnız bəzi fərdi əsaslarda baş verməsi hallarının istisna edilmədiyi məlumdur", -XİN rəsmisi bildirib.

# Aksiya olsa da yol açıqdır

## Laçın yolunda sülhməramlıların avtomobili maneəsiz keçib

**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 1 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

"Report"un aksiya keçirilən ərazidəki əməkdaşı xəbər verir ki, toplanış yerində nəqliyyat vasitəsi maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

Belə ki, həmin yük avtomobili Laçından Xankəndi istiqamətinə maneəsiz hərəkət edib.

Bununla da bu gün bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 74-ə çatıb.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

# Paşinyan və Makron regional təhlükəsizliyi müzakirə edib

Ermənistan Baş naziri Nikol Paşinyan Fransa Prezidenti Emmanuel Makronla görüşüb.

APA xəbər verir ki, görüş Münxen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutub.

Ermənistan və Fransa liderləri regional təhlükəsizliyi və stabilliyi müzakirə ediblər.

# "Rədd olsun diktatura!"

## Münxendə İran rejiminə qarşı kütləvi etiraz aksiyası keçirilib

**Fevralın 17-də Almaniyanın Münxen şəhərində yaşayan iranlılar şəhərin mərkəzi küçələrində İran rejiminə qarşı kütləvi etiraz aksiyası keçiriblər.**

Azərtac xəbər verir ki, aksiya iştirakçıları "Diktatora ölüm!", "Xamneyiyə ölüm!", "Rədd olsun diktatura!", "Qadınlara azadlıq!" kimi şüarlar səsləndiriblər.

Xatırladaq ki, bu gün İranın böyük şəhərlərində də kütləvi aksiyalar davam edib və bənzər şüarlar səsləndirilib.

Ötən ilin sentyabrından başlayan kütləvi aksiyaların artıq 6 aydır həbslərə və edamlara baxmayaraq davam etməsi İranda daxili vəziyyətin heç də ürəkaçan olmadığını deməyə əsas verir.

Kütləvi aksiya iştirakçılarına qarşı törədilən vəhşilik və qəddarlıq dünya ictimaiyyətini də narahat etməyə başlayıb.

Münxendə iranlı miqrantların kütləvi aksiya keçirməsi təsadüfi deyil. Bildiyimiz kimi, bu gün Münxendə hər il keçirilən Təhlükəsizlik Konfransı işə başlayıb. Konfransda Avropa və Asiya dövlətlərinin liderləri, tanınmış ictimai-siyasi xadimlər, dünyanın aparıcı beyin mərkəzlərinin rəhbərləri iştirak edirlər. Aksiya iştirakçılarının məqsədi də dünyanın siyasi elitasının diqqətini İranda baş verən haqsızlıqlara və qanunsuzluqlara cəlb etməkdir.





Xatırladaq ki, ötən ilin sentyabrında 22 yaşlı qadının polis zorakılığına məruz qalaraq həyatını itirməsindən sonra başlayan kütləvi aksiyalar İranın irili-xırdalı bütün şəhərlərində davam edir. Bir sıra şəhərlərdə aksiyalar iğtişaşlara çevrilib, banklar, inzibati binalar dağıdılıb, polis və təcili tibbi yardım avtomobilləri yandırılıb. Aksiya iştirakçılarını iğtişaşlara sövq edən əsas səbəb hökumətin onları "terrorçu", "xarici dövlətlərin agentləri" adlandırması və göstərilən qəddarlıq olub. Bu günədək qarşıdurmalarda 500-ə yaxın aksiya iştirakçısı və təhlükəsizlik qüvvələrinin 50-dən çox əməkdaşı həlak olub. Həbs olunanların sayı 15 mini ötüb, 100-dən çox şəxs edam edilib.

Ötən əsrin ortalarında İranda inqilabi proseslər başlayanda cəmiyyətdə heç kim orta əsrlərin şəriət qanunları ilə yaşamağa davam edəcəyini ağlına belə gətirmirdi. İnsanlar dini ədalətin bərqərar olacağına, ölkənin dünya ilə daha sıx inteqrasiyasına, şah rejiminin qəddarlığına son qoyulacağına və ən başlıcası, zəngin yeraltı sərvətlərə malik ölkədə əhalinin rifahının yüksələcəyinə inanırdılar. Bu inam on minlərlə insanın küçələrə çıxmasına, şah rejimi əleyhinə təşkil olunan kütləvi aksiyalara qatılmasına səbəb olurdu. Lakin 1979-cu il İslam inqilabından sonra vəziyyət başqa istiqamətə yönəldi və çox keçməmiş insanlar gözlədikləri həyat səviyyəsinə çata bilməyəcəklərini anladılar.

Məhkəmələrin əl kəsmək, qadınları çadraya məhkum etmək barədə qərarları və digər şəriət qanun-qaydalarının tətbiqi insanların inqilaba münasibətini tamamilə dəyişdi, lokal etirazlar baş qaldırdı. Lakin rejim təbliğat və zor gücünə insanları ram edə bildi. İnqilabdan sonra minlərlə görkəmli ziyalı, tanınmış alim, mədəniyyət xadimi ölkəni tərk etdi. Yeni hakimiyyət yeni siyasi xətt tutaraq regionda hökmranlıq etmək üçün "Şiə hilalı" kimi geosiyasi layihələri ortaya atdı.

Neft və qazdan əldə olunan milyonlar ölkənin inkişafına və sosial vəziyyətin yüksəlməsinə deyil, region dövlətlərinə təsir etmək üçün yaradılan siyasi və bəzən də silahlı qruplaşmaların maliyyələşməsinə yönəldildi. Digər tərəfdən nüvə proqramını həyata keçirərək dünyanın diqqətini üzərinə çəkdi və sərt sanksiyalara məruz qaldı. Bütün bunlar ölkədə sosial-iqtisadi vəziyyəti son dərəcə ağırlaşdırdı. Artıq əhali təbliğata uymur və anlayır ki, rejimin yürütdüyü siyasət ötən 40 ildə İrana nəinki inkişaf və rifah gətirməyib, əksinə, onu dünyadan təcrid vəziyyətə salıb.

Yuxarıda deyilənləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, İranda davam edən kütləvi aksiyalar heç də təkcə qadın hüquqlarının müdafiəsi və bu kimi digər məsələlərlə bağlı deyil, insanlar artıq beziblər və rejimin dəyişməsini istəyirlər.

**Ermənistanın Baş naziri Nikol Paşinyan ötən ilin sonunda Brüsseldən xahiş etdi ki, Azərbaycanla təmas xəttinə müşahidəçilər göndərsin. Brüssel iki aylığına təmas xəttinə müşahidəçilər göndərdi.**



Moskva əvvəlcə buna etiraz etmədi. Ancaq iki ay bitdikdən və Paşinyan Avropa İttifaqının müşahidə missiyasının müddətini və sayını artırmaqla bağlı Brüssellə razılığa gəldikdən sonra Kreml narahat olmağa başladı. Hazırda Moskvada hesab edirlər ki, Avropa İttifaqı Rusiyanın Ukraynada başının qarışmasından istifadə edərək Cənubi Qafqazda, o cümlədən Ermənistanda hərbi nöqteyi-nəzərdən möhkəmlənmək istəyir.

# Avropa İttifaqı hər hansı ölkədə hərbi baza yarada bilməz

## Kreml Avropa İttifaqından çox Fransanın Ermənistanla sıx əlaqələrindən narahat olmalıdır

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Avropa İttifaqı NATO-dan fərqli olaraq hərbi struktur deyil, hər hansı ölkədə hərbi baza yarada bilməz. Məsələn, Avropa İttifaqı Rusiyanın Gümrüdəki hərbi bazasını əvəz edə bilməz. Bu, praktiki baxımdan mümkün deyil:** "Avropa İttifaqına üzv dövlətlərin bir qisminin Cənubi Qafqazda maraqları olsa da, Cənubi Qafqazda Rusiya ilə toqquşmaq istəmirlər. Aİ-yə üzv dövlətlər arasında Azərbaycanla strateji tərəfdaş olanlar da var, enerji əməkdaşlığı mövcuddur. Həmin dövlətlər Avropa İttifaqının müşahidəçi missiyasının tərkibində yer almağa tələsməyəcəklər. Avropa İttifaqının Ermənistana göndərəcəyi müşahidəçi missiyasında əsasən Fransa nümayəndələri yer alacaqlar. Əslində Kreml Avropa İttifaqından çox Fransanın Ermənistanla sıx əlaqələrindən narahat olmalıdır".

**İsmayıl**

# Azərbaycanda media subyektləri vergilərdən azad edilir

**Azərbaycanda media subyektləri vergilərdən azad edilir.**



Bununla bağlı Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Vergi Məcəlləsinə dəyişiklik müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin, habelə onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımların gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif olunur.

Eyni zamanda media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də əlavə dəyər vergisindən azad edilir.

Azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq və audiovizual media subyektlərinə şamil olunmur.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.




# Nəhayət, Rusiya da bizim mövqeyə gəldi

## Minsk qrupunu Qərb ölkələri tarixin zibilliyinə atıb

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ATƏT-in Minsk qrupundan danışıb. Zaxarova deyib ki, bu formatı məhz Qərb ölkələri tarixin zibilliyinə atıb.**

Onun sözlərinə görə, ABŞ başda olmaqla Qərb ölkələri Ermənistan-Azərbaycan nizamlanmasının səylərini pozub: "Minsk Qrupu formatı tarixin zibilliyinə məhz ABŞ və Fransadan olan həmsədrlərin uydurma bəhanə ilə 2022-ci ilin fevralında rusiyalı həmkarları ilə əməkdaşlığı dayandırdıqdan sonra atılıb. Budur fakt. Onlardan heç bu cür fəaliyyətə görə başadüşülən izah da gəlməyib. Bunu nəzərə alaraq biz Bakı və İrəvana üçtərəfli format çərçivəsində yardım etməyə diqqətimizi yönəltdik. O ki qaldı ABŞ-nin vasitəçiliyinə, biz onun real addımlarla dolu olmasını, hansısa əlavə dəyərə malik olduğunu görmürük". Həmçinin qeyd edib ki, Rusiya sülh müqaviləsinin imzalanması ilə bağlı Ermənistan və Azərbaycana yardım etməyə davam edir. Zaxarova iki ölkə arasında münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndə İqor Xovayevin İrəvan və Bakıya səfərlərini və oradakı təmaslarını xatırladıb. Onun sözlərinə görə, həm erməni, həm də Azərbaycan tərəfi Rusiyanın vasitəçiliyində maraqlı olduqlarını bildiriblər: "Sülh müqaviləsinin həssaslığını nəzərə alaraq, mən məsləhətləşmələrin detallarına varmayacağam. Bir daha Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünü təşkil etməyə hazır olduğumuzu təsdiq edə bilərəm".

**Rusiya XİN rəsmisinin açıqlamasını "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ilk növbədə Moskvanın İrəvanla bağlı dəyişən mövqeyinə diqqət çəkib. Professor bildirib ki, Ermənistanın müstəqil xarici siyasətinin olmadığı, xaricdən gələn təlimatlar əsasında fəaliyyət göstərmələri hər kəsə bəllidir:** "Ermənilərin xaricdən aldıqları reseptlə proseslərə yanaşması Rusiyanı həm qıcıqlandırır, həm də qəzəbləndirir. Ona görə də Rusiya XİN başçısı Sergey Lavrov açıq şəkildə Ermənistanın siyasətini tənqid edir. O ki qaldı ATƏT-in Minsk qrupuna, bu mənasız formatı tarixin arxivinə göndərən şəxs məhz dövlət başçısı cənab İlham Əliyevdir. Müharibədən bir qədər sonra həmsədrlərin israrlı xahişi ilə onları qəbul edən ölkə rəhbəri həqiqətləri olduğu kimi dilə gətirdi. İctimaiyyətin mövqeyi ilə yanaşı, siyasi və diplomatik cəhətdən də Minsk qrupuna ağır dildə cavab verildi. 30 il boş zaman keçirmiş, problemin həlli üçün heç bir iş görməmiş Minsk qrupu layiqli qiymətini aldı. İki ildən sonra olsa da, nəhayət, Rusiya da bu mövqeyə gəldi. Əslində Zaxarovanın dediyi üçtərəfli format, yəni Rusiya-Azərbaycan-Ermənisan arasında aparılan müzakirələr, anlaşmalar da Prezident İlham Əliyevin ideyasıdır. Rusiya üçtərəfli formatda özü də yer aldığı üçün daim bunu dəstəkləyib və prosesə əlavə ölkələrin müdaxiləsinə qısqanc yanaşıb. Üçtərəfli formatda rəsmi Bakı tərəfindən indiyədək heç bir problem yaradılmayıb. Azərbaycan imza atdığı sənədə uyğun olaraq üzərinə götürdüyü öhdəliklərə əməl edib. Ancaq Baş nazir Nikol Paşinyanın tez-tez mövqeyini dəyişməsi, Rusiyanın acığına Qərbə yönəlik addımlar atması, bölgəyə Avropa İttifaqının "mülki missiyası"nı gətirməsi və s. hadisələr prosesin irəliyə doğru getməsinə mane olub. Son günlər Paşinyan xaricdən aldığı sifarişlə yenidən Qarabağın "statusu" məsələsini gündəmə gətirir. Halbuki bu, birbaşa Azərbaycanın daxili işinə qarışmaqdır".

**C.Nuriyev vurğulayıb ki, ABŞ-nin bu məsələdə vasitəçiliyi öz maraqlarına uyğun yox, Azərbaycan və Ermənistanın maraqlarına uyğun şəkildə olmalıdır:** "Aydındır ki, ABŞ-nin məqsədi Cənubi Qafqazda söz sahibi olmaq, möhkəmlənməkdir. Rusiya isə bunu istəmir. Avropa İttifaqının, xüsusən Fransanın Ermənistan ərazisində fəaliyyət niyyəti İrəvanın müstəqil olmamasından qaynaqlanır. Ainin missiyasına rəsmi Bakı da qarşı çıxır. Çünki hələ müəyyən olunmamış dövlət sərhədləri ilə bağlı hansısa ölkənin, təşkilatın, missiyanın nəsə söyləməsi, konkret bir tərəfi ittiham etməsi absurd olar. Zaxarovanın ABŞ və Fransanın timsalında Qərbi tənqid etməsi Rusiyanın ənənəvi siyasətidir. Lakin ABŞ və Fransanın ATƏT-in Minsk qrupunu yenidən diriltməyə cəhd göstərməsi bu iki ölkənin öz maraqlarını gündəmə gətirmək məqsədi daşıyır. İndiki dönəmdə həmsədrlik institutunu reanimasiyadan çıxartmaq cəhdi ağılsız təşəbbüsdür".

İsmayıl Qocayev

# Tələbələrə quru sərhəddən istifadəyə imkan yaradılmalıdır

## Ən azı Türkiyədə təhsil alan tələbələrin ölkəmizə qayıtması üçün güzəşt tətbiq edilməlidir




**Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra qardaş ölkədə ali məktəblərdə təhsil onlayn, distant formaya keçib. Bu səbəbdən Türkiyədə təhsil alan azərbaycanlı tələbələrə quru sərhəddən istifadə imkanının yaradılması təklif olunur.**

Millət vəkili Vüqar Bayramovun sözlərinə görə, Türkiyədə 30 minə yaxın Azərbaycan vətəndaşının təhsil aldığını nəzərə alsaq, həmin gənclərin ölkəmizə qayıdışına dəstək olunması vacibdir: "Təyyarə biletlərinin baha olduğunu nəzərə alsaq, tələbələrin çoxunun quru sərhədləri vasitəsilə vətəninə qayıtmağa üstünlük vermək istəyi anlaşılandır. Bu aydan etibarən Türkiyə ilə Naxçıvan arasında quru sərhədlərimiz açılsa da, bu imkandan Muxtar Respublikada qeydiyyatda olan vətəndaşlarımız istifadə etmək hüququna malikdir. Bu baxımdan, qeydiyyat yerindən asılı olmayaraq, Türkiyədə təhsil alan Azərbaycan vətəndaşlarına belə imkanın yaradılması məqsədəuyğun olardı. İndiki halda tələbə biletini təqdim etməklə azərbaycanlı tələbələrin quru sərhədlərindən istifadə icazə verilməsi onların vətənə asan və daha az xərclə qayıtmasına imkan yaradardı. Bütövlükdə, mərhələli şəkildə qardaş Türkiyə ilə quru sərhədlərimizdən bütün vətəndaşlarımızın istifadə imkanının yaradılması məqsədəuyğun olardı".

**Təhsil eksperti Nadir İsrafilov da açıqlamasında bu təşəbbüsü dəstəkləyib:** "Dünya ölkələrində belə təcrübələr var. Niyə bizdə də olmasın? Gənclər bizim gələcəyimizdir, onlara hərtərəfli dövlət qayğısı göstərilir. Mənəvi dəstəklə yanaşı, maddi dəstək də əsas şərtlərdən biridir. Bu gün ölkə rəhbərliyinin təhsilimizə böyük diqqət və qayğısı var. Aidiyyəti qurumlar bu sahədə araşdırma aparıb, müvafiq qurumlara təklif təqdim etməlidirlər. Bu, vətəndaşlar tərəfindən dövlətimizin təhsilimizə qayğısının növbəti bariz təzahürü kimi qiymətləndiriləcək. Türkiyədə çox sayda azərbaycanlı tələbələr təhsil alır və onların dəmək olar ki, hamısı yataqxanalarda yaşayır. Quru sərhədlərinin bağlı və ölkəyə uçuş biletlərinin qiymətlərinin baha olması onların problem yaşayacağını deməyə əsas verir. Bu mənada ən azı Türkiyədə təhsil alan tələbələrin ölkəmizə qayıtması üçün güzəşt tətbiq edilməlidir".

Şəymən

# Hər kəs sumkasında torba gəzdirəcək

## Amma bunun ekologiyamıza heç bir müsbət təsiri olmayacaq

**Polietilen paketlərin ödənişli edilməsi super-marketlərdən alıdolu çıxmağa alışıq olanların ovqatını təlx edib. Guya ki, dünənədək (XX əsrin sonlarınadək) parça zənbillərlə mağazalara gedən biz deyildik. Polietilen paketlər dəbə minəndən evdar xanımlar da parça, hörmə zənbilləri köhnəlik qalığı elan edib onlardan üz çevirdilər.**



Bir-iki ağıllı adam "polietilen paketlər ziyanlıdır, onları zibillərin təkrar emalından hazırlayırlar, polietilen paketdə çörək, ərzaq, qida məhsulu saxlamayın" desələr də, kimdi eşidən?!. Amma çərxifələk tərsinə dövran etməyə başladı. Polietilen paketlər yavaş-yavaş dövriyyədən çıxarılır. Bunun əsasən ekologiyanın mühafizəsi məqsədilə edildiyi bildirilsə də, marketlərin polietilen paketlərə konkret məbləğ təyin etməsində həm də qazanc güdüldüyü də şübhəsizdir. Kiçik ölçülü (kartof-soğan toplayıb tərəziyə qoyduğumuz paketlər) polietilen paketlərə görə ödəniş tələb olunmur. Bu, marketlərə sərf etməz. Marketlər bununla alıcılara "gəlin, pərakəndə satışda olan məhsulları paketə yığın", çağırışı edir. Amma kassaya yaxınlaşanda əgər kiçik paketləri nisbətən böyük ölçülü paketə qablaşdırmaq istəsəniz, ona görə ödəniş tələb olunacaq. Orta ölçülü paketlərə görə 3 qəpik, böyük ölçülüyə görə isə 5 qəpik çıxılacaq. Mini-marketlərdə, kiçik ərzaq mağazalarında polietilen paketlər hələ ki, ödənişsizdir. Kiçik mağazalar alıcılarını itirmək istəmir. Super-marketlər isə alıcı itirməyəcəklərinə arxayındır. Çünki polietilen paketlərdən imtina tələbi elə bir vaxtda dövrəyə daxil olub ki, əhalinin 99 faizi marketlərə bağlı haldadır artıq. Super-marketlərdən qaçış mümkün deyil. Bir-iki gün alıcılar çaş-baş qalacaq, sonra yenə hamı vəziyyətə alışacaq. Polietilen paketlərin dəyəri alınan malların qiyməti fonunda itib-batacaq.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İctimai İcraiyyə Komitəsinin sədri, hüquqşünas Sahib Məmmədovunsa polietilen paketlərlə bağlı öz yanaşma tərzi var. Baxaq:**

- Avropa ölkələrində artıq neçə illərdir ki, plastik və plastik olmayan torbalar satılır. Buna görə də hər kəs sumkasında torba gəzdirir. Bəzən də ticarət şəbəkələri kapron və yığılan torbalar bağlayaraq alıcılara aparılıb. Məndə "Migros"un iki belə torbası var. Oralara gedəndə götürürəm. İndi artıq aeroportların "Duty Free"ləri də torbaları satır. Avropanın bu "dəbi" nəhayət bizə də gəlib çatdı. Amma birincisi, Avropada torbanı satarkən onun qiyməti artıq, satılan məhsulların qiymətinə daxil edilmir. İkincisi, Avropada müxtəlif qurumlar mütəmadi olaraq plastik kütlənin az istifadə olunmasını qeydə alırlar. Məsələn, torbalar havayı olanda nə qədər kütlə istifadə olunurdu, indi nə qədər. Nəticə bəlidir ki, istifadə kəskin azalıb. Bizdə belə olacaqmı? Ümumiyyətlə, bununla bağlı data toplayan qurum varmı? Çox güman ki, yoxdur və olmayacaq. Sadəcə, görüntü yaratmaq (pokazuxa) naminə edilib. Həm də bundan da pul düzəldəcəklər, üstəgəl, bu, əlavə qazanc olacaq və satılan məhsulun qiymətinin azalmasına gətirməyəcək. Ölkəyə hibrid avtomobillər gətirilir və onlara gömrük rüsumunda güzəştlər nəzərdə tutulur. Guya ətraf mühitin qayğısına qalırlar. Halbuki Azərbaycanda belə avtomobillərin akkumlyatorlarının utilizasiya poleqonu yoxdur. Nəticədə hibrid avtomobillər ətraf mühitə dəfələrlə çox ziyan verir, nəinki dizel yanacağı ilə işləyən avtomobillər.

Məlahət Rzayeva



**Media haqqında qanunvericiliyin pozulmasına görə cərimələr artırılıb. Axşam.az APA-ya istinadən xəbər verir ki, məsələ Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, media məhsullarının qanunla müəyyən edilmiş qaydada yayımına mane olmağa görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə ediləcəklər. Mövcud Məcəlləyə əsasən, kütləvi informasiya vasitələri məhsullarının qanunla müəyyən edilmiş qaydada yayılmasına mane olmağa və ya dövri mətbu nəşrin tirajının pərakəndə satışına qanunla nəzərdə tutulmayan məhdudiyyətlər qoyulmasına görə fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə cərimələnir.

# Jurnalistin fəaliyyətinə qanunsuz müdaxilə edənlər cərimələnəcəklər

Eyni zamanda, layihəyə əsasən, jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə müəyyənləşir.

Həmçinin Məcəlləyə təklif edilən digər dəyişikliklə qanunla müəyyən edilmiş müddətdə onların sorğusuna cavab verilməməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə tətbiq edilməsi təklif edilir. Hazırda qanunla müəyyən edilmiş müddətdə jurnalist sorğusuna cavab verməməyə görə iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə tətbiq olunur.

Media subyektləri tərəfindən təkzib, cavab və düzəliş verilməsi qaydalarının pozulmasına görə cərimə müəyyənləşib. Layihəyə əsasən, media subyektləri tərəfindən təkzib, cavab və düzəliş verilməsinin "Media haqqında" qanunla müəyyən edilmiş qaydaların pozulmasına görə vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə ediləcək.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) görə yeni cərimə müəyyənləşir. Layihəyə əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə ediləcəklər.

# Qaradağlı soyqırımından 31 il ötür

## Elman Məmmədov deyib ki, faciəyə hüquqi-siyasi qiymət verilməlidir

**"Qaradağlı soyqırımına hüquqi-siyasi qiymət verilməlidir". Bunu Milli Məclisin iclasında deputat Elman Məmmədov bildirib.**



Parlament üzvü bildirib ki, Qaradağlı soyqırımı böyük faciədir: "Ermənilər Qaradağlı kəndinin dinc sakinlərini vəhşicəsinə qətlə yetiriblər. Quyulara doldurараq üzərini torpaqlayıblar. Xocavəndin 130 şəhidindən 78-i məhz Qaradağlı kəndinin sakinləri olub. Bu dəhşətli faciənin baş verməsindən 31 il ötüb. Hesab edirəm ki, Qaradağlı soyqırımının bütün detalları ilə beynəlxalq aləmə çatdırılmasına, faciəyə hüquqi-siyasi qiymət verilməsinə nail olmalıyıq".

*Qeyd edək ki, Xocavənd rayonunun Qaradağlı kəndi 17 fevral 1992-ci il tarixdə erməni silahlı birləşmələri tərəfindən işğal olunub. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatlına görə, işğal zamanı kənddə olan 116 nəfərdən 57 nəfər qətlə yetirilib. Əsir-girov götürülmüş kənd sakinləri amansız işgəncələrə məruz qalıb, onlara qarşı aşkar soyqırım həyata keçirilib, etnik təmizləmə aparılıb. Qaradağlı kəndinin işğalı zamanı 39 nəfər itkin düşmüş şəxs kimi axtarılır. Onlardan 33 nəfər kişi, 5 nəfər uşaq (oğlan), 1 nəfər isə qadındır. Əsir-girov götürülmüş 50 nəfər isə sonradan azad olunub.*

İsmayıl

**Mövsümi xarakterli atmosfer çöküntülərinin intensivliyinin artması cənub bölgəsində lokal sürüşmə zonalarının aktivləşməsinə səbəb olub.**



Bunu Trend-in sorğusuna cavab olaraq Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev bildirib.

Onun sözlərinə görə, əsasən Lənkəran və Lerikdə lokal sürüşmə zonalarının aktivləşdiyi müşahidə olunub.

# Sürüşmə zonaları ilə bağlı son vəziyyət açıqlandı

## Lənkəran və Lerikdə sürüşmə zonalarının aktivləşdiyi müşahidə olunub

"Bizə daxil olan müraciətlər əsasında həmin ərazilərdə monitorinqlər keçirilib, müvafiq ekspert rəyləri hazırlanaraq müvafiq orqanlara təqdim olunub. Mütəmadi olaraq ölkə ərazisində sürüşmə zonalarının monitorinqi aparılır. Bakı şəhərində bugünə olan məlumata görə ümumilikdə sürüşmə zonalarında ciddi aktivləşmə qeydə alınmayıb. Lakin Nübar yaşayış massivində və Masazır sahəsində zəif dinamik aktivləşmə müşahidə olunur. Amma təhlükəli sürüşmə prosesi qeydə alınmayıb. Ölkə ərazisində 99 lokal sürüşmə sahəsinin 42-i monitorinqlərimizə cəlb olunub. Hazırda ölkə ərazisində sürüşmə zonaları ilə bağlı durum stabildir.", - deyə xidmət rəisi qeyd edib.

# İranın şəhərlərini yenidən etiraz aksiyaları bürüyüb

**Fevralın 16-da gecə saatlarında İranın paytaxtı Tehran və digər şəhərlərdə geniş etiraz aksiyaları keçirilib. Bu barədə Reuters agentliyi məlumat yayıb.**

Fevralın 17-də davam edən etiraz aksiyaları ötən ilin sentyabrında nümayişlərdə iştirak etmiş Məhəmməd Mehdi Kərəmi və Seyid Məhəmməd Hüseyninin edam edilməsinin 40-cı günü ilə əlaqədar təşkil edilib. Agentliyin xəbərində bildirilir ki, Tehranın bir neçə məhəlləsində, eləcə də Xuzistan əyalətinin Kərəc, İsfahan, Qəzvin, Rəşt, Ərak, Məşhəd, Sənəndəc, Qorvə və İzeh şəhərlərində gecə boyu davam edən nümayişlərdə İran rejiminin əleyhinə şüarlar səsləndirilib.

İranın şimal-şərqində yerləşən şiələrin müqəddəs Məşhəd şəhərində çəkildiyi iddia edilən onlayn videoda nümayişçilərin əllərində "Şəhid qardaşım, sənin qanının qisasını alacağıq" şüarları tutduqları bildirilir.



# İran yenə ciddi təxribatlara hazırlaşır

## ABŞ və onun Yaxın Şərqdəki müttəfiqləri üçün təhdid yaranıb

**ABŞ-nin Yaxın Şərqdəki Hərbi Hava Qüvvələrinin komandanı general Aleks Qrinkoviç İranın Amerika qüvvələrinə və regiondakı neft obyektlərinə hücum planları barədə xəbərdarlıq edib.**

O deyib ki, İran ciddi təxribatlar hazırlığındadır: "Hazırkı vəziyyətdə İranın diqqəti Amerika, Suriyadakı beynəlxalq koalisiya qüvvələrinə, dənizdə olan hədəflərə və regiondakı neft infrastrukturuna hücum etməyə yönəlib". Xatırladaq ki, son günlər bir neçə Qərb ölkəsi Tehran rejiminin müəyyən bölgələrdə təxribatçı hərəkətlər hazırlığında olduğunu iddia ediblər. Onların fikrincə, İran hər hansı hərbi müdaxiləyə məruz qalarsa, dərhal planlarını işə salacaq.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, İran öz ərazisinə hansısa hücum olacağı təqdirdə cavab zərbələri endirəcək. Analitik qeyd edib ki, İran Yaxın Şərqdə ABŞ-nin hərbi bazalarını, iqtisadi-maliyyə infrastrukturlarını, eyni zamanda neft obyektlərini vurmaqla bağlı daim təhdidlər yağdırıb:** "İranın dar məqamda buna gedəcəyi şübhəsizdir. Uzun müddətdir İran bununla bağlı hazırlıq görüb və uzaqmənzilli raket ehtiyatlarını toplayıb. Bir müddət öncə İran ərazisinə PUA-larla edilən hücumdan sonra Tehran rejimi buna adekvat cavab verəcəyini, qisas alacağını bildirmişdi. İran bölgədə özünün proksi qüvvələrindən, maliyyələşdirdiyi, silahla təchiz etdiyi terrorçu ünsürlər vasitəsilə Qərbin infrastrukturlarını vura bilər. Belə bir təhlükə daim mövcuddur. İran artıq qlobal mənada baş ağrısına çevrilib. ABŞ, Avropa ölkələri və İsrail İranın nüvə silahı əldə etmək üçün apardığı işlərdən ciddi narahatdır. Son günlər bu narahatlıq daha da artıb. Çünki prosesin sonuna doğru gəlindiyi ilə bağlı məlumatlar var. İran yaxın dövrdə nüvə silahı əldə edərsə, bu, ABŞ və onun Yaxın Şərqdəki müttəfiqləri üçün ciddi təhdid olacaq. Ona görə də İranı durdurmaq üçün hərbi əməliyyatların keçirilə biləcəyi də istisna olunmur".

*N.Mirinin sözlərinə görə, hərbi müdaxilə ilə bağlı plan hər zaman masadadır:* "ABŞ və İsrail hava qüvvələrinin birgə təlimləri də göstərir ki, İrana qarşı hücumların modeli hazırlanmaqdadır. Artıq real anti-İran koalisiyası yaranıb və miqyası da getdikcə genişlənməkdədir. İranı durdurmaqla bağlı ortaq fikir formalaşmaqdadır. Yaxın dönəmdə İrana ciddi hərbi zərbələrin endiriləcəyi ehtimalı yüksəkdir. İranın hər hansı təxribatçı addımları hərbi müdaxilənin tarixini daha da tezləşdirər".

**İsmayıl Qocayev**

# Məqsəd başqadır

## Avropa İttifaqının səfiri bir qrup jurnalistlə qapalı toplantı keçirib



**""Media haqqında" qanunun qəbulundan xeyli vaxt keçməsinə baxmayaraq, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko Bakıda bir qrup jurnalistlə qapalı toplantı keçirib".**

Bunu Milli Məclisin iclasında deputat Sahib Alıyev bildirib. O deyib ki, bu toplantı Azərbaycanda söz azadlığı ilə bağlı narahatlıqdan irəli gəlmir, məqsəd başqadır: "Bu qanunda, sadəcə, tənzimləyici addımlardan söhbət gedir. Bu qanun qəbul olunana qədər müxtəlif platformalarda, o cümlədən parlamentlə geniş müzakirələr keçirilib. Bu halda dinləmə adı altında belə addımın atılmasında məqsəd nədir? O tədbirdə iştirak edənlər içərisində jurnalistikada saç-saqqal ağardan insanlar da var. Nəzərə alınmalıdır ki, xaricdəki bəzi azərbaycanlılardan söyüş məqsədilə istifadə edənlərin məqsədi dəyişməyib. Digər tərəfdən, o da nəzərə alınmalıdır ki, bu gün Ermənistanın ölkəmizlə sərhədinə müşahidə missiyası yerləşdirilməsi adı altında atılan addımlar Azərbaycanın suverenliyinin tam təmin olunmasının qarşısının alınmasına yönəlib. O tədbirə qatılanlar da belələrinin məqsədini anlamalıdırlar".

Spiker Sahibə Qafarova isə qaldırılan məsələnin vacibliyini vurğulayıb. Bununla bağlı Parlamentdə deputatın mətbuat konfransı təşkil etməsinə imkan yaradılmasını tapşırıb.

**İsmayıl**

# Xankəndidə siyasi qarşıdurma gərginləşəcək

## Kreml Araiklə Vardanyan arasında siyasi döyüşü izləmək istəyir

**"Xankəndidə separatçıların "başçısı" Araik Arutyunyan "konstitusiya" dəyişikliyi ilə bağlı qərar qəbul edib. Hərbi vəziyyətdə separatçıların qondarma "prezidentini" "parlament" seçəcək".**



Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik vurğulayıb ki, ilk baxışdan "ümumi razılaşma" prinsipinə söykənən bu addımın əslində Ruben Vardanyanı oyundankənar vəziyyətə salmağa hesablandığı görünür: "Çünki "seçkilər"dən sonra hökumət də yenidən formalaşdırılacaq və Ruben komandadan kənarda qala bilər. Rusların Vardanyan layihəsi təkcə Bakıya yox, həm də İrəvana qarşıdır. Ruslar Bakının erməni əhalisi ilə qurmaq istədiyi təmaslarda Vardanyanı "nümayəndə" kimi irəli çəkir. Bununla ABŞ-nin təşəbbüsünü ələ keçirir, eləcə də inteqrasiyanın qarşısını alır. Perspektivdə Vardanyanın "artsax döyüşçüsü" kimi Ermənistan siyasətinə transfer edilməsi planının olduğu da istisna deyil. Nikolun Rubenə qarşı sərt mövqeyi o deməkdir ki, İrəvan belə bir perspektivi görür. Yaxud təhlükə haqda məlumatlıdırlar. Rubenin erməni diasporu daxilində anti-Paşinyan mövqeyində olanlarla isti münasibətləri də bu riski artıran amillərdəndir. Bakı və İrəvanın mövqeyi Rubenin getməsi məsələsində üst-üstə düşür. Hərçənd, bu o demək deyil ki, ortaq addımlar var. Sadəcə olaraq, Laçın yolunda aksiyanın sülhməramlıların nəzarətindəki bölgədə yaratdığı situasiya Nikola bundan Vardanyanın əleyhinə istifadə imkanı verdi".

Ekspert diqqətə çatdırıb ki, Ruben direniş göstərəndə Paşinyan Araik üzərindən etdiyi ilk cəhddə yeni "seçkilər"lə onu prosesdən kənarlaşdırmaq istədi: "Lakin ruslar bunun qarşısını kəsdi. İndi "konstitusiya islahatları" adı ilə Vardanyanı uzaqlaşdırmaq üçün növbəti proses hazırlanır. Bu addımın Araik-Ruben cütlüyünün Moskvaya ayrı-ayrılıqda getməsi və geri qayıtmasından sonra baş verməsi təsadüfi deyil. Görünür, ruslar hər ikisinə müəyyən vədlər verməklə "qalib gəlmək" uğrunda siyasi döyüşü izləmək istəyir. Separatçılar arasında yarana biləcək xaos da sülhməramlıların "hakim" mövqeyini gücləndirir. Proseslər göstərir ki, Xankəndidə siyasi qarşıdurma gərginləşəcək. Bu qarşıdurma bizim maraqlarımıza uyğundur və Bakı "halqanı daraltmaq"la separatçılar üçün vəziyyəti daha da kəskinləşdirə bilər".

**İsmayıl**

# Jirinovskinin oğlunu cəzalandırırlar?

## "Ola bilsin ki, həbs ona siyasi fəaliyyəti ilə bağlı verilən bir mesajdır"





**Vladimir Jirinovskinin nikahdankənar oğlu Oleq Eydelşteyn Moskvada polisə hücum edib. Qeyd olunur ki, hadisə Rusiya paytaxtındakı restoranlardan birində baş verib.**

Belə ki, 36 yaşlı Oleq Eydelşteyn ictimai yerdə söyüş söyüb, qışqırıb, ətrafdakı insanların rahatlığını pozub. Polis izahat alınmaq üçün onu idarəyə aparıb. Burada isə Oleq Edelşteyn polis inspektorunun döş qəfəsinə zərbələr endirib. Nəticədə Oleq Eydelşteyn Moskvanın Tverskoy Məhkəməsi tərəfindən 15 sutkalıq inzibati həbslə cəzalandırılıb.

**Hadisəni "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev vurğulayıb ki, burada iki məsələ var:** "Birincisi, bu, adi bir məişət hadisəsi də ola bilər. Belə ki, Rusiya cəmiyyətində vəzifəli şəxslərin həddindən artıq sprtli içki qəbul edərək dava-dalaş eləməsi alışdığımız haldır. Hətta Rusiya prezidentlərindən Boris Yeltsin rəsmi səfərlərdə içkili olub və ayaq üstə gücla dayanıb. Hətta Jirinovskinin özü belə rəngli bir şəxsdir. O, buzlu suya girməsi ilə tanınıb. Ola bilsin, bu da adi bir məişət hadisəsidir və səs-küy yaratdığı üçün polisə dəvət edilib".

Analitikin sözlərinə görə, hadisə Jirinovskinin oğlunun siyasi aktivliyindən asılı olan bir məsələ kimi də qiymətləndirilə bilər: "Əgər onun belə bir siyasi aktivliyi varsa və atasının xəttini davam etdirirsə, ola bilər ki, qarşı tərəf ona mesaj vermək istəyir. Yəni cəzalandırırlar. Çünki biz son dövrlərdə Rusiyanın imperial ambisiyalarını müdafiə edən və sərt xətt tərəfdarları olan şəxslərə qarşı hücumların şahidi olmuşuq. Xatırlayırsızsa, hətta bir müddət əvvəl Aleksandr Duqinə qarşı sui-qəsd olmuşdu, ardından isə qızı ölmüşdü. Yəni ola bilsin ki, həbs ona siyasi fəaliyyəti ilə bağlı verilən bir mesajdır".

**Nihat Müzəffər**

# Ermənilərin yeni planı...

## "Sumqayıt hadisələri"nin indi gündəmə gətirilməsi təsadüfi deyil

**Ermənilər "Sumqayıt hadisələri"nin "35-ci ildönümü"nə hazırlaşırlar. Artıq bu istiqamətdə erməni lobbisi, diasporu, Qriqoryan kilsəsi və xarici ölkələrdəki nüfuzlu, imkanlı ermənilər geniş kampaniyalara başlayıblar.**



Diqqətçəkən məqam isə bu məsələdə onlara başda Fransa olmaqla, bir sıra Qərb ölkəsinin də ciddi dəstək verməsidir.

Qeyd edək ki, "Sumqayıt hadisələri" 1988-ci ilin fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş verib. İğtişaşlar nəticəsində 32 nəfər həyatını itirib. Ermənilər baş verən hadisəni Azərbaycanın ermənilərə qarşı "kütləvi qətli", hətta bəzən "soyqırımı" kimi qeyd etsə də, faktlarla aydın oldu ki, hadisə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərlə birgə həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Dövrün siyasi proseslərinə, eyni zamanda tarixə nəzər salsaq, hadisənin məhz ermənilər tərəfindən törədildiyi aydın şəkildə görünür.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, ermənilərin siyasi məqsədləri üçün öz soydaşlarını qətlə yetirməsi, hətta kütləvi şəkildə öldürməsi ilk belə hal deyil.** Analitik bildirib ki, XIX əsrin ikinci yarısında Qərbin imperialist ölkələrinin təhriki ilə Osmanlının Şərqi Anadoludakı torpaqları hesabına "müstəqil Ermənistan" dövləti yaratmaq istəyən ermənilər "Daşnaksütyun" "Xınçaq" kimi terrorçu təşkilatlar ətrafında birləşməyə başladı. Lakin bu prosesdə iştirak etmək istəməyən ermənilərin sayı da az deyildi: ""Daşnaksütyun" və "Xınçaq"a məxsus silahlı ermənilər xüsusilə İstanbul, Ədirnə, Selanik, İzmir, Ərzurum, Antakya və digər ermənilərin kompakt yaşadığı Osmanlı şəhərlərində onlara dəstək verməyən erməniləri kütləvi şəkildə qətl edirdi. Maraqlıdır ki, Sumqayıtda öldürülən ermənilərin, demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər idi. Bu mənada ermənilərin Sumqayıtda öz soydaşlarını qətlə yetirməsi heç də təəccüblü hal deyil. Digər yandan, 1988-ci il fevralın 19-dan etibarən İrəvanda kütləvi mitinqlər başlamışdı. Mitinq iştirakçıları "Ermənistan türklərdən təmizlənməli!", "Ermənistan yalnız ermənilər üçündür!" kimi şüarlar irəli sürürdülər. İrəvanda bu hadisələrə qarşı etirazını bildirən azərbaycanlıların evlərinə od vurulur, kütləvi şəkildə qətlə yetirilirdi. Ermənilər hadisənin təktərəfli olmaması üçün bu hadisə ilə paralel azərbaycanlıların da erməniləri kütləvi şəkildə "öldürməsinə" çalışırdı. Bunun üçün Azərbaycan dilini səlis şəkildə bilən xüsusi təlim keçmiş ermənilər, Sumqayıtda ermənilər yaşayan mənzillərə basqın təşkil edirdi. Bununla da ermənilər həm Ermənistanda anti-Azərbaycan hərəkatını gücləndirir, həm də bu hərəkatın səbəbsiz yerə olmadığını isbat etməyə çalışırdılar. Əsas kimi isə həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq azərbaycanlının əksəriyyəti məhz Sumqayıtda məskunlaşdığını və hadisənin onlar tərəfindən törədildiyini irəli sürürdülər".

**T.Rzayevə görə, "Sumqayıt hadisələri"nin "35-ci ildönümü"nə hazırlaşan ermənilərlə "Sumqayıt hadisələri"nin sifarişçiləri, təşkilatçıları eynidir:** "Diqqətçəkən digər məqam isə ermənilərin bu hadisəni məhz Azərbaycanın Qərbi azərbaycanlılarla bağlı məsələni qabartdığı bir zamanda etməsidir. Ermənilər məhz indi "Sumqayıt hadisələri"ni gündəmə gətirərək Qərbi Azərbaycandan zorla qovulan azərbaycanlılarla bağlı həqiqətləri kölgədə qoymaq, gündəmdən çıxarmaq istəyirlər. Çünki bu faktın qabardılması və Azərbaycan tərəfindən dövlət səviyyəsində beynəlxalq aləmin diqqətinə çatdırılması azərbaycanlıların indiki Ermənistan ərazisindən zorla qovulmaları, vəhşicəsinə öldürülmələri, təziyiq və zorakılıqlara məruz qalmalarını, münaqişənin məhz ermənilər tərəfindən başladıldığını təsdiqləyir".

**İsmayıl**

# Qərbin məqsədi Rusiyanın təsirini azaltmaqdır

## Ermənistana gələcək missiyaya alman polislərin də qatılması vəziyyəti gərginləşdirəcək



**Avropa İttifaqı Ermənistan-Azərbaycan sərhədinə göndərəcəyi missiyaya Almaniya polisini də cəlb edəcək.**

Almaniya Nazirlər Kabinetinin nümayəndəsi Ştеffen Hebеrştrayt bildirib ki, Federal Nazirlər Kabineti Almaniyanın AB-nin Ermənistandakı yeni missiyasında Azərbaycanla beynəlxalq sərhəddə iştirak etməsi barədə qərar qəbul edib.

Heberştraytın sözlərinə görə, AB missiyasında hüquq-mühafizə orqanının maksimum 15 əməkdaşı iştirak edəcək. Məqsəd isə silahsız patrulların köməyi ilə atəşkəs rejiminə riayət olunmasına nəzarət etməkdir.

Ekspertlərin fikrincə, Fransa və Almaniya hüquq-mühafizə orqanları əməkdaşlarının Ermənistana müşahidəçi qismində gəlməsi həm missiyanın mahiyyəti, həm də Avropa Birliyinin regionda möhkəmlənmək baxımından uzunmüddətli niyyətləri ilə bağlıdır. Yəni missiya formal olaraq mülki xarakter daşısa da, hərbi sferada olan tapşırıqları yerinə yetirəcək.

**Politoloq Azər Rəşidoğlu isə missiyada hərbçilərin sayının artmasının yeni gərginliyə səbəb olacağını düşünür. Politoloq "Şərq"ə açıqlamasında deyib ki, Avropa İttifaqı bu qərarı qəbul etməklə sülh müqaviləsini imzalamağı əngəlləyir.** Bundan istifadə edən Ermənistan sülh müqaviləsini imzalamağı, Zəngəzur dəhlizinin açılmasını uzatmağa çalışacaq: "Bakının razılığı olmadan xüsusi missiyanın bölgəyə göndərilməsi reallaşa bilməz. Lakin onu nəzərə alaq ki, missiya bizim deyil, Ermənistanın ərazisində yerləşəcək. Əlbəttə ki, biz bunu razılıqla qarşılaya bilmərik. Missiyada hərbçilərin sayının artması yeni gərginliyə səbəb ola bilər. Fransa jandarmlarından sonra Almaniya polislərinin missiyaya əlavə olunması danışıqların vaxtını uzadacaq. Qərb Rusiyanın zəifləməsindən istifadə edərək, burada öz mövcudluğunu təsdiq etmək, regiona daxil olmaq istəyir. Rusiyanın başının Ukraynada qarışdığını nəzərə alan Qərb Cənubi Qafqazda möhkəmlənmək istəyir. Qərbin məqsədi vəziyyətə nəzarət etmək, öz mövcudluğunu təsdiqləmək, Rusiyanın təsirini azaltmaqdır. Paşinyan Qərbə referanslar edir. Qərb də bu amildən faydalanmaq niyyətindədir. Bakı isə bölgədə yeni gərginliyin yarana biləcəyindən ehtiyat edərək, balans siyasətinə üstünlük verir".

**Şəymən**

# Millət vəkilləri xalqın sözünü dedi

## Türkiyəyə təyyarə biletləri həddindən artıq bahadır



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda gündəliyə salınmış 31 məsələ müzakirə olunub. Öncə Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə fevralın 6-da Türkiyədə zəlzələdə həlak olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Sədr qeyd edib ki, deputatlar hər gün Türkiyə deputatları ilə əlaqədədir: "Mən də hər gün faktiki olaraq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla əlaqə saxlayıram. Türkiyə ilə bir yerdə olmağa, dəstəyə davam edəcəyik".**

Parlament sədri vurğulayıb ki, Avropa İttifaqının müşahidə missiyasının Ermənistanla sərhəddə yerləşməsi ilə bağlı mövqeyini Rusiyada keçirilən görüşlərdə bəyan edib: "Avropadan Ermənistanın Azərbaycanla sərhədinə müşahidə missiyasının gətirilməsi normallaşma prosesinə manеə yarada bilər".

### "Türkiyədə təhsil alan tələbələrə güzəştlər tətbiq olunsun"

Deputat Ceyhun Məmmədov Türkiyədə zəlzələyə görə tələbələrə təyyarə biletində güzəşt olunmasını təklif edib. Bildirib ki, Türkiyədən təyyarə biletləri bahadır, tələbələrin zəlzələ ilə əlaqədar ölkəyə qayıdışında çətinliklər yaranıb: "Türkiyədə zəlzələ ilə bağlı tələbələrə təyyarə biletlərində güzəştlər tətbiq olunmalıdır. İndi distant təhsilə keçilib. Ancaq elə ədəbiyyatlar var ki, tələbələr onları da qayıdaraq Türkiyədən gətirməlidirlər. Ona görə təyyarə biletlərində güzəştlər vacibdir. Türkiyə və digər ölkələrin təcrübəsində də belə hallar var".

### "Azərbaycan xalqı hər zaman Türkiyənin yanındadır"

Deputat Elman Nəsirov bildirib ki, Azərbaycan xalqı hər zaman Türkiyənin yanındadır: "Türkiyədəki fəlakət bütün dünyanı sarsıdıb. İkili standartlara baxmayaraq, Avropa İttifaqı Türkiyəyə yardımla bağlı donor konfransı keçirməyə, BMT Türkiyəyə 1 milyard dollar yardım ayırmağa hazırlaşır. Azərbaycan xalqının isə bu fəlakət fonunda Türkiyəyə dəstəyi daha da artdı".

Deputat Fəzail Ağamalı Türkiyədə baş verən faciəyə Azərbaycanın faciəsi kimi yanaşdığını söyləyib: "Bu faciəyə ilk reaksiya verənlər Azərbaycan Prezidenti İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva oldu. Bizim Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinin Türkiyədə fəlakət zonasında fəaliyyətini də xüsusi qeyd etmək istəyərdim".

### "Siyasəti çirkinləşdirməyin..."

Deputat Kamal Cəfərov isə qeyd edib ki, Türkiyənin faciəsindən daxili və xarici siyasi maraqlar üçün istifadə etmək istəyənlər nə azərbaycanlı, nə də türkdür: "Bu faciədən zərər çəkənlərin hisslərinə siyasi məzmun verənləri, bu ağır faciəni siyasi mənfəətə çevirmək istəyən hər kəsi qınayıram. Bu gün birlik, bərabərlik zamanıdır, siyasət zamanı deyil. Siyasəti çirkinləşdirməyin". O, güclü və qüdrətli Türkiyə dövlətinin bu çətinliyi də aşacağına, bu acı sınaqdan da şərəflə çıxacağına əminliyini ifadə edib.

Millət vəkili Fazil Mustafa bildirib ki, MTN generallarından birinin milyonlarla əmlakı qaytarıldı. Onun sözlərinə görə, qanunlar medianın belə şəxslərlə bağlı araşdırma aparmasına mane olmamalıdır: "Digər tərəfdən, müstəqil media öz reytinqinin ölçülməsində maraqlı olmaya bilər. Bu hala görə cərimə müəyyənləşdirilməsi düzgün deyil. Bu halın büdcədən maliyyələşdirilən audiovizual media orqanlarına şamil edilməsi yaxşı olardı".

### "Nəyə görə buna qarşı çıxılmalıdır?"

Hər hansı cərimənin ağırlaşdırılmadığını söyləyən Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qeyd edib ki, media orqanlarının məhsulunun yayılmasına məqsədyönlü şəkildə mane olmağa görə cərimələr müəyyənləşdirilir: "Jurnalist fəaliyyətinə mane olmağa görə də cərimə müəyyənləşir. Nəyə görə buna qarşı çıxılmalıdır? O cümlədən mediaya vergilərlə bağlı güzəştlər edilir. Bütün bunlar ancaq təqdir olunmalıdır".

### "Vətəndaşa deyirlər ki, yaşadığın evə bələdiyyənin, dövlət qurumunun 20 il əvvəl verdiyi sənəd saxtadır"

Millət vəkili Rəşad Mahmudov sənədsiz evlərlə bağlı problemi gündəmə gətirib. Vurğulayıb ki, vətəndaşlar bələdiyyələrdən torpaq alıb, banklara ödəniş edib, yerli icra hakimiyyətindən icazə alıblar: "Bu insanlar 20 il bu evdə yaşayıblar, övladları o evdən əsgər gedib. 2020-ci ildə torpaqların sərhədləri müəyyənləşəndən, elektron xəritələr tərtib olunandan sonra bu torpaqların bələdiyyələrin səlahiyyətinə daxil olmayan ümumi istifadədəki torpaqlar olduğu üzə çıxıb. İndi insanlar əllərində 20 il əvvəl bələdiyyənin sənədi, banka ödəniş, müvafiq dövlət qurumlarının icazələri ilə evlərinə çıxarış almağa gedir, cavab verilir ki, həmin sənədlər saxtadır. Bu məsələ ilə bağlı mənə 3 nəfər müraciət edib, ona görə məsələni Parlamentdə qaldırmağa qərar verdim. Belə məsələlərin həlli də diqqət mərkəzində olmalıdır".

İsmayıl Qocayev



**"Xocalı hər gün atəşə tutulurdu. Biz 4 ay blokada şəraitində yaşamışıq". Bunu "Şərq"ə açıqlamasında Xocalı sakini, soyqırımının canlı şahidi Məmmədov Mürvət Məmməd oğlu ailəsinin və özünün üzləşdiyi vəhşilikdən danışarkən deyib. O bildirib ki, hadisələr zamanı 14 yaşı olub:**

"Biz 8 nəfər ailə üzvlərimlə birlikdə Qərbi Azərbaycandan Xocalı şəhərinə pənah gətirmişdik. Məcburi köçürüldüyümüz zaman isə bir qardaşımı şəhid vermişik. Xocalı şəhərində də erməni zülmü ilə üzləşən ailə üzvlərimdən atam və iki qardaşım könüllü şəkildə döyüşlərdə iştirak edib. Fevralın 25-dən-26-na keçən gecə ermənilər yenidən hücuma keçdilər. Şəhərə yaxın qardaşlarım postdan gəldilər ki, ana, deyəsən, ermənilər Xocalıya girib, camaatı öldürür, hazırlaşın, biz də meşədə qaçanlara qoşulaq. Elə bu anda evimizi mühasirəyə aldılar və hər tərəfdən atəşə tutdular. Atam ov tüfəngi ilə, qardaşımsa bizdə yaralı yatan qonşumuz Vidadi dayının silahı ilə patronlar qurtarana qədər döyüşdülər. Gözləmədiyimiz anda evə əl qumbarası atdılar. Mən və anam yaralandıq. Qonşumuz Sara xala və 3 yaşlı qızı Natavan isə dünyasını dəyişdi. Fürsətdən istifadə edən ermənilər içəri girdilər və hər kəsi bir otağa yığıb yandırmaq istədilər. Bu zaman 3 yaşlı qardaşım Ruslan dedi ki, məni öldürməyin. Bu vaxt ermənilərin tərəfində vuruşan rus zabiti öz xeyri üçün bizi yandırmağa qoymadı".

# "Otaqda çürümüş ət və qan qoxusundan dayanmaq olmurdu"

## Şahid: "Xocalı soyqırımının qurbanları ən iyrənc işgəncələrə məruz qalıb"



Onun sözlərinə görə, saxlandıqları otaqda ən iyrənc işgəncələrə məruz qalıblar: "Bizi və atamla iki qardaşımı ayırdılar. Mənlə beş nəfər ailə üzvüm yaralıların saxlandığı bir otağa gətirdik. Otaqda çürümüş ət və qan qoxusundan dayanmaq olmurdu. Balaca qardaşım Əhmədin ad günü olduğunu öyrənən ermənilər onu aldadaraq əlinə avtomat verdilər və tətiyi sıxaraq əsirləri güllələdilər. Dedilər ki, bu da bizdən sənə ömürlük hədiyyə qalsın. Sonra isə bizi maşına mindirib Ağdamla Əsgəranın arasına gətirdilər və muzdlu qaradərili döyüşçünün meyiti ilə 80 nəfər azərbaycanlı əsir dəyişdirildi. Atam və iki qardaşım barəsində isə heç bir məlumat yox idi, təxminən 15 il onları axtardıq, amma tapa bilmədik. Sonra isə məlum oldu ki, atam və iki qardaşımın erməni məzarı üstündə başları kəsilib. İndiyə kimi onların cəsədi bizə verilməyib".

O qeyd edib ki, torpaqlarımız azad olduğu üçün köhnə illərə nisbətən şəhidlərimizin ruhu şaddır: "Dövlətimizə və ordumuza minnətdaram ki, şəhidlərimizin qanı yerdə qalmadı. Artıq onlar rahat uyuya bilərlər. Cənab Ali Baş Komandan İlham Əliyevin və şəhidlərimizin sayəsində Xocalıda həlak olan insanların ruhları artıq erməni əsirliyindən azaddır. Ümumiyyətlə, hər zaman bizimlə maraqlandığı və qeydimizə qaldığı üçün cənab prezidentə və dövlətimizə minnətdaram. Onun sayəsində biz firavan həyat sürürük. Hazırda ailəliyəm, gözəl evim, işim və iki övladım var. Oğluma rəhmətlik atamın adını vermişəm. İnanıram ki, tezliklə Xocalıya qayıdacağıq. Biz hələ Qarabağı düşünərkən Prezident İlham Əliyevin təşəbbüsü ilə Qərbi Azərbaycan icması yaradıldı. O dədə-baba torpaqlarımıza da qayıdacağımıza şübhə etmirəm".

Nihat Müzəffər

# Yeni şəhər salmaq üçün ciddi araşdırma aparılmalıdır

## Təklifin reallaşdırılması üçün ölkə başçısının müvafiq sərəncamı olmalıdır



**Azərbaycanda dəniz kənarında gənclər şəhərciyinin inşası və adının Heydərabad adlandırılması təklif olunur. Bir vaxtlar Yaşmada, dəniz kənarında gənclər şəhərciyinin tikilməsi ilə bağlı təkliflərin gündəm olduğunu xatırladan millət vəkili Azər Badamov bu barədə Parlamentin plenar iclasında çıxış edib.**

Deputatın fikrincə, sonradan təxirə salınan şəhərciyin inşa edilməsi məsələsi yenidən gündəmə gətirilməlidir. A.Badamov bildirib ki, Türkiyədə baş verən zəlzələ gələcək planların qurulması məsələsinə yenidən baxılması üçün zəmin yaradır: "Təbii fəlakətlərdən heç bir ölkə sığortalanmayıb. Bakının çox yüklənməsi səbəbindən insanlar tıxac problemindən əziyyət çəkirlər. Şəhərin mərkəzində çoxmərtəbəli binaların sayının artması bu problemi daha da artırır. Binaların bir-birinə çox sıx şəkildə inşasının təhlükəsizlik baxımından da heç bir normalara uyğun gəlmədiyini hesab edirəm. Əgər hər hansı fövqəladə hal baş versə, yarana biləcək vəziyyəti təsəvvür etmək çətin deyil".

Deputat Yaşmada inşa olunmalı şəhərciyə paytaxt statusunun verilməsini də təklif edib: "Bakıdakı müəyyən dövlət idarələri və universitetlərini oraya köçürmək olar. Təbii ki, bu da Bakının yükünü azaldar və bir sıra problemlərin həllinə kömək olar. Həmçinin bu il "Heydər Əliyev" İli olduğunu nəzərə alaraq, yeni şəhərciyin cari ildə tikilməsinə başlamağı və oranı Heydərabad adlandırmağı təklif edirəm".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadənin "Şərq"ə açıqlamasına görə, bu məsələ daha çox siyasi məsələ olduğundan birbaşa ölkə başçısının iradəsindən asılıdır:** "Ölkə ictimaiyyətinin, xüsusən də parlament üzvlərinin təklifləri də əsas götürülə bilər. Lakin yeni şəhər salmaq üçün çox ciddi araşdırma aparılmalı, hansı ərazinin daha uyğun olduğu öyrənilməlidir. Ölkə ərazisində Ulu Öndərin adını daşıyan çoxsaylı strateji obyektlər, prospektlər var. Çoxsaylı təkliflər fonunda Heydərabad şəhərinin də salınması mümkün məsələdir. Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi və ərazi bütövlüyümüzün bərpası idi. Ona görə də Azərbaycanın ən dilbər guşəsi olan Qarabağda Heydərabad şəhərinin salınması çox nəcib təklifdir. Mən bu təklifi dəstəkləyirəm, alqışlayıram. Amma təklifin reallaşdırılması üçün ölkə başçısının müvafiq sərəncamı olmalıdır. Bu halda isə Bakının yükünü azaltmaq üçün paytaxtın Qarabağa köçürülməsinə ehtiyac görmürəm. Bakı kifayət qədər strateji bir şəhərdir. İndiki reallıqda paytaxtın Qarabağda salınacaq yeni şəhərə köçürülməsi müəyyən çətinliklər yarada bilər".

Şəymən

# Qüdrət Həsənquliyev narazılıq edib

## "Deputatların qanunvericiliklə bağlı təkliflərinə, təşəbbüslərinə xüsusi iradla yanaşmaq düzgün deyil"



**Milli Məclisin iclasında Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deputatların qanunvericiliklə bağlı təkliflərinə münasibətdən narazılıq edib. O deyib ki, deputatların qanunvericiliklə bağlı təkliflərinə, təşəbbüslərinə xüsusi iradla yanaşmaq düzgün deyil: "Mən kiməsə faizlə borc vermək istəyirəm.** Mülki Məcəlləyə təklif olunan dəyişikliyə əsasən, mən borc verə bilərəm, ancaq müntəzəm borc verə bilmərəm. Layihədə qeyd olunub ki, müntəzəm borcu kredit təşkilatları verə bilər. Yaxşı, mən ayda, ildə neçə dəfə faizlə borc verə bilərəm? Mənim komitədə qoyduğum sual bununla bağlı idi, müntəzəm məsələsinə aydınlıq gətirilməsini istəmişdim. Ancaq qanunvericilik subyekti deyib ki, layihə dəyişə bilməz. Yəqin fikirləşirlər ki, sabah Prezident bilsə, deyər ki, niyə layihə hazırlananda bu məqam diqqətinizdən qaçıb".

Q.Həsənquliyev vurğulayıb ki, buradakı 125 deputatın da işi odur ki, qanunlarda boşluqlar olanda bunu nəzərə çatdırsın: "Mən müntəzəm məsələsinə işçi qaydada aydınlıq gətirilməsi üçün müraciət etmişdim. Bununla bağlı layihəyə bir qeyd əlavə etmək olardı. Ancaq bu cür təşəbbüslərə belə reaksiya göstərilməməlidir. Bir məqamı xatırlatmaq istəyirəm. Bir qanun layihəsinin müzakirəsi zamanı təklifimizə uyğun olaraq dəyişikliklə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili demişdi ki, təklif nəzərə alınaraq qanun layihəsinə dəyişiklik olub, "o cümlədən" sözü "habelə" sözü ilə əvəzlənib. Əslində, bunlar sinonim sözlərdir və bunu qanun layihəsində dəyişiklik kimi təqdim etmək də düzgün deyildi".

Qeyd edək ki, dünən Milli Məclisdə Mülki Məcəlləyə dəyişikliklər ikinci oxunuşda müzakirəyə çıxarılıb. Deputat Nurlan Həsənov bildirmişdi ki, Qüdrət Həsənquliyevin layihə ilə bağlı bir təklifi olub və bu təklif qanunvericilik subyekti tərəfindən qəbul edilməyib. Ancaq Q.Həsənquliyevin təklifinin mahiyyəti açıqlanmamışdı.

İsmayıl

# Türkiyədən 565 nəfər Azərbaycan vətəndaşı təxliyə olunub

## Hazırda təxliyə prosesi davam edir



**Türkiyədə baş vermiş zəlzələdən zərər çəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və onlara köməklik göstərilməsi istiqamətində işlər davam edir. Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.**

"Zəlzələ baş vermiş gündən etibarən 565 nəfər Azərbaycan Respublikası vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları zəlzələ bölgəsindən təxliyə olunub. Hazırda təxliyə prosesi davam etməkdədir.

Türkiyədən təxliyəsi həyata keçirilən vətəndaşlarımız və onların ailə üzvlərinə lazımi tibbi, humanitar və psixoloji yardımın göstərilməsi, zərurət yarandıqda həmin şəxslərin müvəqqəti sığınacaq mərkəzlərinə yerləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına müvafiq göstəriş verilib.

Qaynar xətt nömrələrinə daxil olmuş minlərlə müraciət araşdırılıb, haqqında xəbər alına bilməyən Azərbaycan vətəndaşlarının siyahısı hazırlanaraq, onlar haqqında məlumat əldə etmək məqsədilə, Türkiyənin aidiyyəti qurumları ilə birgə müvafiq iş aparılıb. Nəticədə bir çox Azərbaycan vətəndaşlarının olduğu yer müəyyən edilib və onlarla əlaqə saxlanıb. Hazırda 2 nəfər Azərbaycan vətəndaşı haqqında məlumat yoxdur, onların axtarışları davam etdirilir.

Aparılmış axtarış-xilasetmə tədbirləri nəticəsində bu günə qədər 10 Azərbaycan vətəndaşının zəlzələ nəticəsində həlak olduğu müəyyən edilib. Onlardan 1 nəfər Türkiyədə dəfn olunub, 9 nəfərin cənazəsi isə bütün zəruri prosedurlar yerinə yetirilməklə, Türkiyədə olan yaxınlarının müşayiəti ilə Azərbaycana yola salınıb.

Bu dəhşətli zəlzələdə həlak olan həmvətənlərimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!", - nazirlikdən qeyd olunub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**




# Milli mətbəximizi tanıdaq!

## İndi bu vəzifə daha çox gənclərin üzərinə düşür

**Ölkəmizin dünyada həm də milli mətbəxi ilə tanındığı məlumdur. Azərbaycan mətbəxinin dünyada sevilməsi və ona böyük maraq yaranması ləzzəti ilə yanaşı, həm də təqdimatından da çox asılıdır, desək, yanılmarıq. Azərbaycan xalqı tarixən qonaqlarına milli yeməkləri ürəyinin istisi, səmimiyyətiylə təqdim edib. Ürək açıqlığıyla təqdim edilən yeməklərin dadlı, ləzzətli olacağına isə şübhə yoxdur. Xalqımız mətbəx mədəniyyəti də ayrıca bir mövzudur. Milli mətbəximiz eyni zamanda xalqımızın tarixən sahib olduğu bir sıra digər peşələrin nümunələrini özündə əks etdirib.**

Məsələn, Şəkinin məşhur pitisi xüsusi saxsı qablarda - piti qablarında bişirilir və elə bu qablarda da təqdim olunur. Bu, dulusçuluq mədəniyyətimizin nümunəsi, milli mətbəximizin şahı olan plovun mis qazanlarda süzülüb dəmə qoyulması misgərliyin, sac üstə hazırlanan yeməklər, şişə çəkilən kabablarsa dəmirçiliyə sübutdur. Siyahını uzada bilərik. Lakin mövzumuz milli mətbəximizin mədəniyyətimizin təbliğinə hazırda necə cəlb edilməsidir. Bu sahədə xeyli müsbət təcrübələr var. Ölkəmizdə keçirilən beynəlxalq kulinariya müsabiqələri, milli mətbəxlərə həsr olunmuş konfrans və simpoziumlar mədəniyyətimizin bu qolunun daha yaxından tanıdılmasına şərait yaradır. Beynəlxalq Muğam Mərkəzində "Milli mətbəxin muğamı" adı altında keçirilmiş "İllərin sənətkarı" milli aşpazlar mükafatının təqdimat mərasimi milli mətbəximizin tanıdılması baxımından uğurlu layihə hesab edilir. Qeyd edək ki, mükafatı "Azərbaycan Aşbazlar Gildiyası", "Diyar.Az" qastronomiya xəritəsinin layihə rəhbəri, "Dünya Restoran İdmanı Federasiyası"nın vitse-prezidenti Nigar Əmirbəyova ilə birgə təsis edib. Tədbirin başlanğıcında ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, eləcə də bu günlər Türkiyədə baş vermiş təbii fəlakət zamanı dünyasını dəyişənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. "Milli mətbəxin muğamı" adlı tədbirdə respublikanın qocaman, təcrübəli şef-aşpazları, tanınmış kulinarlar, elm və mədəniyyət xadimləri, sahibkarlar, media və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirin təşkilatçılarından olan Nigar Əmirbəyova çıxışında bildirib ki, kulinariya sahəsində uzun illər təcrübəsi olan və öz peşəkarlığı ilə seçilən aşpazlar, həmçinin bu sahənin nümayəndələri mükafatlandırılacaq. Belə bir tədbirin keçirilməsində əsas məqsəd Azərbaycan milli mətbəxinin usta aşpazlarına və bu sahənin tanıdılmasında əməyi keçən şəxslərə "İllərin sənətkarı" mükafatını təqdim etmək və onları gənc nəslə tanıtmaqdır. O, milli mətbəximizin dünyada təmsil edilməsində aşpazlarımızın rolunu xüsusi qeyd edib. Tanınmış xanəndələrin ifasında səslənən "Qarabağ" şikəstəsi tədbirə xoş ovqat qatıb. "Azərbaycan Aşpazlar Gildiyası"nın sədri İlkin Əkbərzadə bildirib ki, tədbirdə uzun illər milli kulinariyamızı, mətbəximizi ölkəmizdə və xaricdə layiqincə təmsil edən və 45-50 il təcrübəsi olan usta sənətkarlar iştirak edir: "Məqsədimiz paytaxtda və bölgələrdə yaşayan təcrübəli aşpazlarımızı ictimaiyyətlə yaxından tanış etməkdir. Bu gün paytaxtdan və regionlardan olan 40-a yaxın aşpaz mükafatlandırılacaq. Tədbirimizə, həmçinin peşə təhsili müəssisələrindən gənc aşpazlar da dəvət olunublar. Çünki gənc nəslin qocaman aşpazlarımızı yaxından tanıması onların püxtələşməsinə, milli kulinariyamızı dünyada layiqincə tanıtmalarına təkan verəcək. Cəmiyyətimizdə bu sahədə fəal olan çoxsaylı gənclərimiz var və ümid edirəm ki, onlar səy göstərərək bu sahənin inkişafına öz töhfələrini verəcəklər".

İ.Əkbərzadə "Azərbaycan Aşbazlar Gildiyası"nın fəaliyyətindən, milli mətbəximizin təbliği istiqamətində görülən işlərdən və həyata keçirdikləri layihələrdən də danışıb. Milli Kulinariya Assosiasiyasının rəhbəri Tahir Əmiraslanov, "DAİR Hotellər və Restoranlar" Assosiasiyasının sədri Samir Dübəndi, Türkiyə Dənizli Gənc Aşpazlar Cəmiyyətinin nümayəndəsi Süleyman Kursak təşkilatçılara minnətdarlıqlarını bildirib, milli mətbəximizin, Azərbaycan kulinariyasının müxtəlif beynəlxalq festivallarda təmsil və təbliğ olunmasında qocaman aşpazların fəaliyyətini yüksək qiymətləndiriblər.

**Mədəniyyətimizin bir hissəsi olan milli mətbəximizi yüksək səviyyədə təqdim və təmsil etmək bu sahənin peşəkarları olan aşpazların üzərinə düşür**

Çıxış edənlər aşpazlıq peşəsinin özəlliklərindən söz açıb, milli mətbəximizin öyrənilməsində, bu sahədə ənənələrin qorunub saxlanılmasında, kulinariyamızın beynəlxalq səviyyədə tanıdılmasında, dünya miqyasında təbliğində gənc aşpazlara tövsiyələrini veriblər. Həmçinin kulinariya, aşpazlıq sənəti sahəsində təhsili inkişaf etdirmək, gəncləri cəlb etməklə onların bu sahədə fəaliyyətini stimullaşdırmağın vacibliyi vurğulanıb. Mərasimdə Azərbaycan aşpazları haqqında Bakı Media Mərkəzi tərəfindən hazırlanan film göstərilib. Dünyanın tanınmış aşpazları azərbaycanlı həmkarlarına videotəbriklərini çatdırıblar. Daha sonra "İllərin sənətkarı" milli mükafatı təqdim edilib. Təltif edilənlər arasında Azərbaycan milli mətbəxinin usta aşpazları ilə yanaşı, kulinariya sahəsində çalışanlar da olub. Mükafatçılar onların fəaliyyətini yüksək səviyyədə qiymətləndirdiklərinə görə təşkilatçılara təşəkkürlərini bildiriblər. Sonra peşəkar aşpazlar tərəfindən hazırlanan Azərbaycan milli mətbəxinin incisi sayılan "Şah plov" qonaqlara təqdim edilib. Qonaqlar, həmçinin milli mətbəximizin ləziz təamlarından, müxtəlif şirniyyatlarından dadıblar. Respublikanın tanınmış incəsənət ustalarının təqdim etdikləri "Arşın mal alan" operettasından səhnəcik də tədbirə rəng qatıb. Əlli ildir aşpaz kimi fəaliyyət göstərən Tahir Manafov tədbirlə bağlı fikirlərini bölüşərək deyib ki, 15 yaşından bu peşə ilə məşğuldur və sənətiylə fəxr edir, işini, peşəsini çox sevir: "İnsan hansı işlə məşğul olursa onun sirlərinə dərindən bələd olmalıdır. Bugünkü tədbirə peşəkar, qocaman aşpazlar toplaşıb, onları canlı şəkildə görmək çox sevindiricidir. Bunun üçün təşkilatçılara minnətdarlığımı bildirirəm. Çalışacağıq ki, yeni nəsil aşpazların yetişməsində fəaliyyətimizi bundan sonra da davam etdirək və gənclərə bu peşənin sirlərini öyrədərək usta aşpazlar yetişdirək".

Qeyd edək ki, 22-25 mart tarixlərində Fransanın Mets şəhərində X Beynəlxalq Abilimpiya Çempionatı keçiriləcək (Abilimpiya əlilliyi olan şəxslər arasında peşə sahəsində beynəlxalq yarışlar sistemidir). Azərbaycan ailimpiyaçıları bu çempionata hazırlaşır. Azərbaycanı bu çempionatda çörəkbişirmə üzrə Toğrul Bağırov, dulusçuluq üzrə Əfsanə Tağıyeva, milçə ilə toxuculuq üzrə Leyla Rəsulova, ağac üzərində oyma sənəti üzrə Arif Qasımov, aşpazlıq üzrə isə Natiq Əhmədov təmsil edəcəklər. İştirakçılar hazırda öz bilik və bacarıqlarını artırmaq məqsədilə UNICEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə keçirilən təlimdə iştirak edirlər. İnanırıq ki, abilimpiyaçılarımız çempionatda ölkəmizi layiqincə təmsil edəcək, Azərbaycan mədəniyyətini dünyaya bir daha tanıdacaqlar.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Türkiyə türkcəsinə keçməliyikmi?

## Şahbaz Xuduoğlunun təklifi müzakirəyə səbəb oldu

**"Qanun" Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu feysbuk hesabında Azərbaycan dili ilə bağlı mübahisəli fikir irəli sürüb. Naşirin fikirlərinin məğzini təqdim edirik:**

**"Təhsilimizi və ədəbi dilimizi dəyişməliyik. Cümhuriyyət yarananda dilimizin adı türk olub, kitablarımız türkcə çıxıb. Bəs indi niyə gerçək dilimizə sahiblənmirik?**









**Niyazi Mehdi:** "Ola bilər, naşir təklifinin başqa imkanlar açacağını və nəticədə oxucuların sayının artacağını düşünür"

**Aqşin Yensiey:** "Otuz il ərzində öz uşaqlarınıza dilinizdə bircə dənə "Maşa və Medved" kimi cizgi filmi çəkməmisinizsə, inciməyin"

**Kəramət Böyükçöl:** "Bir başqası da durub deyəcək ki, Azərbaycanda 300-dən çox rus məktəbi var. Gəlin dövlət dilini rus dili edək"

Cənubda 30 milyon Azərbaycan türkü olduğunu deyirik. Tehran kitab sərgisində olanda şahidi oldum ki, onlar da türkcə kitab oxumağa üstünlük verirlər, Türkiyə filmlərinə baxırlar. Onlara azad seçim imkanı verilsə, 99 faizi təhsil üçün Türkiyəyə gedər. Sabah muxtariyyət hüququ qazansalar, Türkiyə-Atatürk türkcəsini seçəcəklər, Azərbaycan türkcəsini yox. Ona görə ki, bizim türkcədə ağlabatan heç nə yoxdur. Bu dildə nə hüquq sistemi quruldu, nə səhiyyə, nə də təhsil. Kitab oxuyan da yoxdur.

Çoxu deyir ki, ortaq türk dili olsun. Bu, sadəcə ədabazlıqdı. Türkiyənin gül kimi türkcəsi var, daha cəsarətli tərpənib o dili olduğu kimi qəbul etməliyik. Əslində, müasir türk əlifbasının müəlliflərindən biri elə Mirzə Fətəli Axundovdur. Axundov əlifbasının qəbulu, həm də o irsə sahiblənmək deməkdir.

Əgər dilimizin adı Azərbaycanda yaşayan digər xalqlara daha tolerant münasibətlə bağlıdırsa, axı onlar da təhsil, səhiyyə və biznes üçün Rusiya və Türkiyəyə üz tuturlar. Onlar da mədəni görünmək üçün rusca, yaxud türkcə danışırlar.

Məhəlli türk şivəsindən həqiqi türkcəyə, Türkiyə türkcəsinə keçməyin zamanıdır. Bəlkə də gecikirik. Türkcəni qəbul etməklə görün, nə qədər üst-üstə yığılmış problemlər həll olacaq. Həmişə düşünmüşəm yaxşı olacaq, dilimiz inkişaf edəcək".

**Sözügedən təkliflə bağlı "Şərq"ə danışan filosof, tənqidçi Niyazi Mehdi qeyd edib ki, Ş.Xuduoğlu ilə dostdur, amma bu təklifini yaxşı qarşılamır:** "Türkiyə türkcəsini Azərbaycan dövlət dili kimi qəbul etməklə oxucuların sayına nə kimi təsiri ola bilər?! Belə olarsa, Azərbaycan sənədləri də türk dilində yazılacaq. Amma inanmıram ki, Şahbaz bəy bunu nəzərdə tutub. Ola bilər, naşir təklifinin başqa imkanlar açacağını və nəticədə oxucuların sayının artacağını düşünür".

**Yazıçı, şair, publisist Aqşin Yeniseyin qənaətincə isə məlum təklif xilas yolu deyil:** "Bu mədəni səviyyə ilə dövlət dili UNO-ların dili də olsa, 6-7 ildən sonra onu da dilimizin indiki halına salacağıq. XII əsrdə ərəb dilinin lüğəti 26 cild olub. Həmin dövrdə türk dilində 10 min, farsca 250 min söz vardı. O dövrdə ərəb dili müsəlman Şərqində elm, fəlsəfə, fars, şeir dili idi. Yaxşı, sən dilini ərəb sözlərindən təmizlədin, yerinə nə qoydun?! Ərəb sözlərini öz dilindən çıxartmaqla, həm də öz dilini elmi, fəlsəfi anlayışlardan təmizlədin axı. Dilimizi Şərqdən qoparanlar, onu Qərbə yapışdırmalı idilər. Amma nə etdilər?! - yazılı dili xəlqiləşdirdilər.

Azərbaycan yazılı dilinin ən böyük faciəsi xəlqilikdir. Onun mühafizəkarlığı da bu bədbəxtlikdən doğur".

**A.Yenisey vurğulayıb ki, bu gün ingilis dili elm, texnika dili olduğuna görə yox, dünya xalqlarının dillərinə açıqdır və başqa dillərdən ən çox söz aldığı üçün dünyəvidir:** "Sıravilər bir yana, Azərbaycanda ziyalılar yazılı dilə mühafizəkar yanaşır. Yazılı dilimizin üzərinə qoyulmuş xəlqilik onun təsir dairəsini ailə mühiti ilə məhdudlaşdırır. Dilimiz mədəniyyətin deyil, arvad-uşağın namını çəkməlidir. Öz dilinə yorğanın altından baxan xalqın dili inkişaf edə bilərmi?! Son günlər İlbər Ortaylının "Azərbaycan türkcəsi dilimizin (Anadolu türkcəsinin) gəncliyidir" fikrini çoxları Azərbaycan türkcəsinə verilən dəyər kimi paylaşır. Bir dilə "gənc" deyirlərsə, o dilin mənsubları bundan qürur deyil, utanc duymalıdırlar. "Gənc dil" nə deməkdir? Yəni o dildə hələ kamilləşmə prosesi getməyib, "həyatı" səhvlərlə doludur. "Gənc dil" fikri dolğun ifadə edə bilməyən dil deməkdir. Adıçəkilən söz birləşməsi ilə böyük mətləbləri izah etmək olmaz.

Dilçilik elminin "atası" sayılan Sössür nitq fəaliyyətini iki yerə ayırır: Dil "langue" və Nitq "parole". Nitq danışma aktı, fərdi, xətti mexanikidir. Dil isə nitqin daxili aləmi, anlayışlar və işarələr sistemidir. Yəni nitq şifahi, dil yazılıdır. Danışa bildiyin nitqin, yaza bildiyin dilindir. Bir dilin "gəncliyi" onun şifahi mərhələsidir. Azərbaycan türkcəsi məhz bu mərhələdə ilişib qalıb. Nitq (söz) mərhələsindən, dil (anlayış) dövrünə keçə bilməyib. Çünki sovet ideoloqları Azərbaycan elmini deyil, ədəbiyyatını cəmiyyətin aparıcı xəttinə çevirdilər. Savadsız fəhlə-kəndli balaları da qalın-qalın poemalar, romanlar yazaraq, elitarlaşıb, folkloru diriltdilər. Funksionallığını itirmiş həqiqətlərlə funksionallığı olmayan bir dil yaratdılar. Yazılı ədəbiyyatımız belə şifahi nitqin hesabına yaradıldı. Necə ki, həmin işi bu gün meyxanaçılar davam etdirir. Hazırda hər evə soxulmaq imkanı olan Azərbaycan efirinin dili 200-300 sözdən ibarət nitqdir. Azərbaycan tamaşaçısı, oxucusu ona görə rus dilinə, Anadolu türkcəsinə "şığıyır" ki, orada nitq yox, dillə ünsiyyətə girir, sözlərlə deyil, anlayışlarla tanış olur".

*Yazıçı həmçinin əlavə edib ki, çağın ölçüləri ilə yanaşsaq, əslində, indi ölü bir dilə sahibik:*

"Dünyada şifahi dili olmayan elə bir xalq yoxdur. Amma yazılı dili olan cəmi 78 xalq var.

Beynəlxalq ədəbi mühitdə artıq belə fikir hakimdir ki, bir roman ingiliscə yazılmırsa, bəri başdan roman deyil, ona vaxt ayırmaq olmaz. Çünki çağı ifadə edən əsas dil ingiliscədir. Dilimiz "gənc" olduğu üçün bugünkü vaxtı ifadə etmək imkanlarından məhrumdur. İnkişaf etmiş dünya çoxdan ideologiyalar dövrünü başa vurub, texnologiyalar çağına qədəm qoyub. Texnologiya zamanında isə dili ədəbiyyatçılar deyil, mühəndislər, proqramistlər, kiber uzmanlar yaradır. Otuz il ərzində öz uşaqlarınıza dilinizdə bircə dənə "Maşa və Medved" kimi cizgi filmi çəkməmisinizsə, inciməyin. Öz vətəninizdə başqa millətlər üçün uşaq böyütmüsünüz".

**Yazıçı Kəramət Böyükçöl qeyd edir:**

"Naşir Şahbaz Xuduoğlu deyir ki, Türkiyə türkcəsini dövlət dili kimi qəbul etməliyik. Bir millət, bir dil olmalıyıq!

Mən hesab edirəm ki, bu fikir böyük təxribatlara yol aça bilər. Çünki bu təklif birbaşa Azərbaycan Respublikasının Konstitusiyasını pozur və konstitusiyamızda dövlət dili və xalqın vahidliyi ilə bağlı əksini tapan müddəalara ziddir.

Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, bu dilin işlənməsinə müqavimət göstərmək, onun tarixən müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qadağandır (AR dövlət dili haqqında Qanunu, maddə 18.1).

Əgər bu gün ictimaiyyət tərəfindən Şahbaz bəyin təklifinə ciddi təpki sərgilənməsə, sabah onun bu fikirlərindən ilhamlanan bir başqası da durub deyəcək ki, Azərbaycanda 300-dən çox rus məktəbi var. Gəlin dövlət dilini rus dili edək. Başqa birisi də durub deyəcək ki, bizim dinimiz islamdır. Gəlin dövlət dilini fars və yaxud ərəb dili edək.

Qətiyyən düşünmürəm ki, Şahbaz Xuduoğlu yazdıqlarını dərk etmir. Çünki özü yazır ki, Azərbaycanın müasir oxucuları Dostoyevski, Tolstoy, Çexov, Turgenev və s. kimi rus klassiklərini türkcə oxuyurlar. İndi Putin bizim "qeydimizə qalaraq" Şahbaz bəyin bu təklifinə qatılıb desə ki, rus klassiklərini niyə türkcə oxuyursunuz? Elə gəlin Dostoyevski, Tolstoy, Çexov, Turgenevi öz ana dilində oxuyun. Onda bu ayı xidməti kimin işinə yarayacaq?

İkinci məsələ. Azərbaycan Respublikası ərazisində yaşayan, dinindən, irqindən, milliyyətindən aslı olmayaraq hər bir vətəndaş soruşmaz ki, mənim dövlətimin dili niyə şivə olmalıdır? Sizcə, bu aruqmentdən Azərbaycan dövlətinin əleyhinə Donetsk, Luqansk, Dnestryanı, Abxaziya, Osetiyadakı kimi istifadə edən tapılmayacaq?

Şahbaz bəy yazır ki, indi danışdığımız dil Şamaxı, Qazax ləhcəsindən yığılaraq ədəbi dil şəklini alıb və göründüyü kimi heç də hamının sevimlisi ola bilməyib. Deyir ki, dilimizin konstitusiyada adı Azərbaycan dili olsa da, bu dil əyalətçilikdən xilas ola bilmədi, milli birlik yaratmadı.

Bu fikir isə Azərbaycanın ərazi bütövlüyünü, konstitusion quruluşunu hədəf alır. Necə yəni dilimiz əyalətçilikdən xilas olmadı? Bu nə deməkdir? İllərdən bəri fəaliyyət göstərən "Qanun" Nəşriyyatının rəhbərinin bu açıqlaması heç bir məntiqə sığmır. Üstəlik də, durduq yerə Türkiyə ilə Azərbaycan münasibətlərinə, qarşılıqlı rəğbət və sevgiyə, qardaşlığa ciddi zərbə vurur. Olmadıq yerdə Azərbaycan xalqını Türkiyənin əleyhinə çevirməkdə məqsəd nədir? Çünki görürəm ki, öz dövlət dilini müdafiə etmək istəyən sadə Azərbaycan insanı Şahbaz Xuduoğlunu tənqid edəndə onun yanına Türkiyəni də qoşur. Və deyim ki, İranın təsirində olan adamlar da Xuduoğlunun xidmətlərindən məharətlə istifadə edə bilirlər.

Şahbaz bəyin bu gün sahib olduğu nə varsa, onun hamısını ona bəyənmədiyi Azərbaycan dili qazandırıb. Mirzə Cəlilin "Ah, yazıq vətən!" dediyi bu ölkənin dilinə hörmət etmək üçün görəsən, Şahbaz bəyə daha nə lazımdır?".

**Sücayət Mehti**

# Təkcə valideynlərlə iş aparmaq çox azdır

## Bəzən bu cür uşaqları küçəyə, gəzməyə belə çıxarmırlar, sanki onlardan utanırlar



***Psixoloq Fərqanə Mehmanqızı: "Cəmiyyətimiz o uşaqları normal, bərabərhüquqlu bir üzvü kimi qəbul edə bilmədiyindən valideynlər övladlarını gizlədir"***

**"Autizm Assosiasiyası" İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarının Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrində məişət zorakılığının profilaktikası və bu kimi ailələrdə sosial rolların düzgün bölüşdürülməsinin təşviq edilməsi" layihəsinin icrasına başlayıb.**

Cari ilin 1 fevral-1 iyun tarixlərində icra ediləcək layihənin məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrində baş verməsi mümkün ola bilən məişət zorakılığı hallarının profilaktikasına və valideynlər arasında sosial rolların düzgün bölüşdürülməsinə nail olmaqdır. Müəyyən olunmuş məqsədə çatmaq üçün layihə çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrində baş verən zorakılıq halları öyrəniləcək və onların qarşısının alınması yolları araşdırılacaq, həmin kateqoriyadan olan uşaqlarla bağlı həyata keçirilən reabilitasiya işlərində və ailədaxili münasibətlərdə zorakılıq hallarından azad davranışların təşviq edilməsi üçün maarifləndirmə tədbirləri keçiriləcək. Layihənin icra qrupu xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı həyata keçirilən reabilitasiya işlərində, ailədaxili münasibətlərdə zorakılıq hallarından azad davranışların bərqərar olunması barədə metodik tövsiyə nəşr etdirəcək. Bundan başqa layihənin hədəf qrupları üçün xüsusi qayğıya ehtiyacı olan şəxslərin bölgüsünə uyğun olaraq 4 mövzuda tematik təlimlər keçiriləcək və həmin şəxslərin ailələrində reabilitasiya işinin düzgün aparılması üçün psixoloji dəstəyə ehtiyacı olan ən azı 100 nəfər valideynə psixoloji məsləhətlər veriləcək. Bununla yanaşı layihə çərçivəsində hədəf qruplarının iştirakı ilə tematik təlimlər keçiriləcək və ailə üzvləri tərəfindən reabilitasiya işinin düzgün aparılması üçün psixoloji dəstəyə ehtiyacı olan valideynlərə psixoloji məsləhətlər veriləcək. Layihə çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı işləyən qeyri-hökumət təşkilatları, özəl mərkəzlər və müəssisələrlə sıx əməkdaşlıq olunacaqdır.

**Bu cür layihələrlə müsbət nəticəyə nail olacağına ümid etdiyini deyən psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlamasında zəruri məqamları açıqladı:**

- Xüsusi qayğıya ehtiyacı olan uşaqların böyüdüyü ailələrlə yalnız müəyyən müddətə, bir layihə çərçivəsində işləməklə istədiyimiz nəticəni əldə edə bilmərik. Ümid edirəm ki, sözügdən layihə uğurlu olar, müsbət nəticələr əldə edilər. Lakin bu, bir layihə ilə başa gələcək iş deyil. Bu cür ailələrlə, xüsusi qayğıya ehtiyacı olan uşaqlara sahib valideynlərlə mütəmadi iş aparılmalı, onlar psixoloji müsahibələrə cəlb edilməlidirlər. Biz belə valideynlərlə söhbətlər aparırıq. Valideynlərin narazılığı cəmiyyətdəndir. Ailələri övladları deyil, cəmiyyət sıxır. Cəmiyyətimiz o uşaqları cəmiyyətin normal, bərabərhüquqlu bir üzvü kimi qəbul edə bilmədiyindən valideynlər övladlarını gizlədir. Bəzən bu cür uşaqları küçəyə, gəzməyə belə çıxarmırlar. Sanki onlardan utanırlar. Çünki cəmiyyətimiz buna hazır deyil. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətdən uzaq düşməsinin səbəblərindən biri də onlar üçün uyğun infrastrukturun olmamasıdır. Piyada keçidlərində, yollarda, binaların giriş-çıxışlarında, istirahət parklarında bu uşaqların gəzməsi, dolaşması, pillələrdən istifadə edə bilməsi üçün şərait yaradılmalıdır. Valideyn övladını fizioterapiya seansına və ya psixoterapevtin qəbuluna gətirmək üçün iş yerindən icazə almalı olur. Ya ata gətirir uşağı, ya anası. Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynlərinə onlara vaxt ayırmaları üçün güzəştlər edilməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar assosiallığa meyillidir. Onların valideynləri də getdikcə cəmiyyətdən uzaqlaşırlar. Yuxarıda sadaladığım səbəblərə görə. Təkcə valideynlərlə iş aparmaq çox azdır. Uşaq bağçalarında, orta məktəblərdə və ali məktəblərdə maarifləndirmə işləri aparılmalı, bu uşaqların cəmiyyətimizin bir parçası olduğu kiçik yaşlılardan tutmuş tələbələrədək hamıya anladılmalıdır. Bağçaya gedən uşaq, məktəbli, tələbə, müəllim, yaşlı insanlar... hər kəs yanında əyləşən fərqli birisinə yad nəzərlə deyil, doğma, mehriban nəzərlə baxmağı öyrənməlidir. O zaman biz istədiyimiz nəticəyə nail olacağıq.

**Məlahət Rzayeva**

**Təbrik edirik!**

**Aynişanı** 1 yaşı münasibətilə nənəsi Rəna, bibisi qızları Sevgi və Ömür təbrik edir, ona bir ömürboyu sevgi və sevgi dolu ömür arzulayırlar.



## 2000-ci ildən bəri tikilən binalar yoxlanmalıdır

### Armaturların böyük əksəriyyəti təkrar emal olunan metallardan düzəldilib



**"Allah uzaq eləsin, Azərbaycanda 7.7 bal gücündə zəlzələ baş versə, "Həzi Aslanov", "Neftçilər" metro stansiyası yaxınlığındakı binalar və Yasamalın yarısı yoxa çıxacaq". Bu sözləri iqtisadçı-ekspert Asif İbrahimov "Şərq"ə açıqlamasında deyib.**

Ekspertin sözlərinə görə, sözügedən ərazilərdə inşaat fəaliyyətləri aparılarkən texnoloji proseslərə, şəhərin Baş planına, Tikinti və Şəhərsalma Məcəlləsinin tələblərinə, TNTQ-lərə, AzDTN-lərə, ara məsafələri haqqında müfəssəl qaydalara və bir çox normativ aktların tələblərinə riayət olunmayıb: "Çox ciddi pozuntular var. Dəmir-beton konstruksiyada istifadə olunan armaturların böyük əksəriyyəti Bakıda istehsal olunan, yəni təkrar emal olunan metallardan düzəldilib. Sovet dövründə Azərbaycan və Gürcüstanda istehsal olunan armaturların yükdaşıyıcılarda, əsas konstruksiyalarda istifadə edilməsinə icazə verilmirdi. Çünki bu materiallar xammaldan yox, yenidən emal edilən materiallardan əldə olunurdu. 2008-2012 ci illərdə Həzi Aslanov metro stansiyası yaxınlığında tikilən binalarda layihə üzrə istifadə edilmə beton 450 olduğu halda beton maşınları 10 saat - 12 saat gözlədilir və betonun mikserdə qurumaması üçün daimi olaraq su əlavə edilirdi. Daha sonra isə 10 saatdan sonra növbə çatanda həmin betonu döşəməyə və sütunlara vururdular.

*Qeyd etdiyim məsələləri nəzərə alaraq, aidiyyəti dövlət qurumlarından xahişim odur ki, 2000-ci ilin əvvəllərindən bu günə qədər tikilmiş yeni binaların vəziyyəti ilə bağlı monitorinq aparsınlar. Xüsusilə də yuxarıda sadaladığım ərazilərdə tikilmiş yeni binalarda".*

**Şəymən**

# Avtomobil bazarında durum stabildir

## Ancaq ikinci əl maşınların qiymətində qismən ucuzlaşma müşahidə olunur

**Ölkədə istehsal, ərzaq və qeyri-ərzaq məhsullarının qiymətlərində bahalaşma davam edir. Bu özünü həm yerli istehsal, həm də idxal məhsullarında göstərir.**

Həyat üçün əhəmiyyətli sayılan ərzaq məhsulları, dərman preparatları, ictimai nəqliyyat, kommunal xidmətlər, tikinti materiallarının qiymətində ciddi artımlar var. Hətta ekspertlər daşınmaz əmlak bazarında belə kifayət qədər bahalaşma müşahidə edir.

**Maşın bazarındakı mövcud vəziyyəti dəyərləndirən nəqliyyat eksperti Eldəniz Cəfərov isə durumun stabil olduğunu deyib.** Onun sözlərinə görə, yanvar ayının birinci həftəsindən etibarən ölkəyə idxal olunan yeni avtomobillərin qiyməti 5 faiz artıb. Bu da bizim daxili avtomobil bazarı və ya iqtisadiyyatımızla bağlı deyil. Dünyanın aparıcı avtomobil istehsalçılarının ehtiyat hissələrinin çatışmazlığı və daşıma şirkətlərinin qiymətlərinin artırılması səbəbilə həmin əmtəənin qiyməti 5 faiz civarında yüksəlib".

İkinci əl avtomobil bazarına gəldikdə isə E.Cəfərov qiymətlərdə bir xeyli azalma olduğunu deyib. Onun sözlərinə görə, mühərrik həcmi 3 000 kubsantimetr və daha yüksək olan avtomobillərin qiymətində 5-10 faiz azalma müşahidə edilir. Bunu da ötən il ərzində bizim ölkədə "Aİ-95" markalı benzinin qiymətinin artması və icbari sığorta tariflərinin yüksəlməsi ilə əlaqələndirmək olar: "Onu da deyim ki, ölkəyə idxal olunan yeni avtomobillərin sayında azalma var. Bu da Rusiyadan avtomobil idxalının dayandırılması ilə əlaqədardır. Demək olar ki, son illər mühərrik həcmi 2 000 kubsantimetrə qədər olan Rusiya istehsalı olan avtomobillərin ölkəmizə idxalı dayanıb. Bu da Rusiyada olan iqtisadi vəziyyətlə bağlıdır. Sanksiyalara görə, Rusiyanın avtomobil sənayesinə lazım olan ehtiyat hissələrinin çatışmazılığı ucbatından Rusiya artıq bugünkü Avropa standartlarına cavab verən minik avtomobilləri istehsal edə bilmir. Bu avtomobillərin yerini artıq yerli bazarda Çin istehsalı olan avtomobillər tutur".



Ekspert həmçinin onu da əlavə edib ki, avtomobil bazarında alıcılar daha çox yeni hibrid krossoverlərə üstünlük verirlər. Artıq vətəndaşların maraq göstərdikləri avtomobillər əsasən ekoloji təmiz nəqliyyat vasitələridir: "Çünki bu avtomobillər dövlət rüsumundan azad edilib. Vətəndaşlar onu aldıqları qiymətə ölkəyə gətirə bilirlər.

**Şəymən**

**Elanlar**

Azərbaycan Respublikası Prezidentinin Zaqulba İqamətgahının işçisi Balaməmmədli Fərid Elçin oğlunan adına verilmiş 96 saylı, 31 dekabr 2023-cü il tarixə kimi etibarlı olan vəsiqə etibarsız sayılsın.

Əzizov Natiq Əzizağa oğluna məxsus zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Elan**

Nəzərinizə çatdırırıq ki, biz "Gulf Velding Services Est" MMC şirkətini 10.02.2023-cü il tarixindən satmışıq. Tərəfimizdən bütün ödənişlər tamamlanmışdır. Kiminsə ödənişlə bağlı şikayət və təklifləri varsa göstərilən tarixdən 5 iş günü ərzində bizə müraciət edə bilər.

# Həkimin məsləhəti mütləqdir

## Fasiləsiz yuxu dərmanlarının qəbulu ciddi problemlər yaradır



**Kaliforniya universitetinin alimləri yeni araşdırmada yuxugətirici dərmanların koqnitiv funksiyalara təsirini öyrənib. Onlar 3068 nəfər böyük yaşlı insanı 8-9 il müşahidə ediblər. İştirakçılar hər il anket dolduraraq nə qədər yuxu dərmanı içdiyini qeyd ediblər, eləcə də 3 ildən bir sağlamlıq vəziyyəti yoxlanılıb.**

Bu müddət ərzində 20 faiz iştirakçıda demensiya inkişaf edib. Onların arasında 79 faiz demək olar ki, daimi olaraq yuxugətirici dərmanlar içib.

Heç dərman içməyənlər arasında isə cəmi 20 faiz demensiya olan müəyyən olunub. Bu səbəbdən həkimlər xəbərdarlıq edib ki, gələcək fəsadlardan qorunmaq üçün yuxugətirici dərmanlarla ehtiyatlı olun.

**Nevroloq Sevinc Vəliyeva da "Şərq"ə açıqlamasında həkim məsləhəti olmadan istifadə edilən dərman vasitələrinin sağlamlıq üçün təhlükəli olduğunu deyib.** Onun sözlərinə görə, xüsusən də yuxu dərmanlarının qəbulu nəticəsində tənəffüs, ürək, mədə-bağırsaq problemləri yarana bilər. Bəzən yuxu dərmanları xəstəyə sakitləşdirici təsir göstərir, bəzən də yuxunu daha da problemləşdirə, xəstədə ciddi şəkildə sinir və psixoloji problemlərə aparıb çıxara bilər: "Yuxu dərmanları adətən həkim resepti ilə satılır. Reseptsiz yuxu dərmanlarının satılması doğru deyil. Həkimlər isə yuxu dərmanlarını adətən uzun müddət yuxusuzluqdan əziyyət çəkən, gecələr yuxuya gedə bilməyən insanlara həkim tərəfindən yazırlar. Normal gündəlik yuxusunu yatan, lakin arada 1-2 gün yuxusuzluq çəkən insanın "mütləq yatmalıyam" deyib dərman qəbul etməsi düzgün deyil.

Həkimin sözlərinə görə, dərman insana normal yuxu yatan insan kimi təsir verməlidir. Ağır antidepresan və şizofreniya xəstələrinə yazılan yuxu dərmanları insana oyandıqdan sonra keylik verir. Uzun müddət dərmanın təsirində qalan insan özünü döyülmüş, fikrini toplaya bilməyən bir halda hiss edir. Ona görə, mümkün qədər belə dərmanların istifadəsindən uzaq durmaq lazımdır.

Melatonin tərkibli dərmanlar isə yuxuya getmə prosesini normallaşdırır, gecə yuxusunun keyfiyyətini və müddətini bərpa etməyə kömək edir. Əlavə olaraq, mənfi xarici faktorlara qarşı müqaviməti artırır. Melatoninin istifadəsi yorğunluğu, qıcıqlanmanı azaltmağa kömək edir və havadakı ani dəyişikliklərə uyğunlaşmağı asanlaşdırır: "Yuxu dərmanları və bu kimi sakitləşdirici dərmanları qəbul etmək bütün insanlar üçün eyni nəticəni verməz. İnsan var ki, çox sağlamdır və yuxu dərmanı onun normal yuxuya getməsinə və səhər normal oyanmasına kömək edir. İnsan da var ki, yuxuda boğulma, nəfəs daralması, kəskin xoruldamadan əziyyət çəkir. Belə insanların yuxu dərmanlarından istifadə etməsi məsləhət görülmür. Çünki gecə yuxunun ağırlığından oyana bilməyən insanda boğulma yarana bilər ki, bu da həyat üçün təhlükəlidir. Hər hansı bir xəstəliyin olub-olmamasını bilmədən yuxu dərmanı istifadə etmək olduqca təhlükəlidir".

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 444



## Taha Duymazla bacısının həlak olduğu təsdiqləndi

**Kahramanmaraşda baş verən zəlzələ nəticəsində dağıntılar altında qalan sosial şəbəkə fenomeni Taha Duymazın həlak olduğu təsdiqlənib.**

Axşam.az xəbər verir ki, bu barədə sosial media fenomeni Dilan Polat və Tahanın yaxın dostu Raqib Narin paylaşım edib.

Bildirilib ki, Taha və onun bacısı Melek Nur Duymazın dağıntılar altında qalan cəsədləri tapılıb.

*Qeyd edək ki, Taha sosial şəbəkədə bişirdiyi yeməkləri paylaşaraq məşhurlaşmışdı. Onun 1,3 milyon izləyici var idi.*

## 261 saat sonra xilas edilən Mustafa

### Ailəsi onun sağ qurtulduğuna inana bilməyib



**Türkiyənin Kahramanmaraş bölgəsində baş verən zəlzələdən 261 saat sonra dağıntılar altından 2 nəfər xilas edilib.**

Axşam.az xəbər verir ki, həmin şəxslər 26 yaşlı Mehmet Ali Şakiroğlu və 34 yaşlı Mustafa Avcıdır.

Mustafa dağıntılar altından çıxarılandan sonra xilasedicilərdən birinin telefonu ilə ailəsinə zəng edib. Ailəsi onun sağ qurtulduğuna inana bilməyib.

Mustafa daha sonra onu xilas edən və ailəsi ilə danışmasına yardımçı olan xilasedicinin əlini öpüb.

## Birinci yerdə İsraildir

### Mobil internetin ən ucuz və baha olduğu ölkələr məlum olub



**Mobil internetin ən ucuz olduğu ölkə İsraildir - 1Gb üçün 0,04 dollar.**

Azərtac xəbər verir ki, Böyük Britaniyanın "Cable" analitika resursu 2022-ci ildə mobil internet qiymətlərinin ən ucuz və baha olduğu ölkələrin siyahısını dərc edib.

Siyahıda ilk beşliyə İsraillə yanaşı, İtaliya (1Gb üçün 0,12 dollar), San-Marino (0,14 dollar), Fici (0,15 dollar) və Hindistan (0,17 dollar) daxildir.

"Cable" analitika resursunun məlumatına görə, 1Gb mobil internetin qiyməti Almaniyada 2,67 dollar, Portuqaliyada 3,67 dollar, Yaponiyada 3,85 dollar, ABŞ-da 5,62 dollar təşkil edir. Folklend adalarında qiymətlər 38,45 dollar, Müqəddəs Yelena adasında isə 41,06 dollardır

Tədqiqatda qeyd olunur ki, yüksək infrastruktura malik ölkələrdə daha ucuz renkinq hissələri tapmaq olur. Keyfiyyətli optik şəbəkələr, həmçinin inkişaf etmiş mobil və stasionar genişzolaqlı infrastrukturun mövcudluğu provayder və mobil rabitə operatorlarına istifadəçilərə daha ucuz qiymətə başa gələn əlverişli paketlər təklif etməsinə imkan yaradır.



# Hamilə qadınlara xəbərdarlıq

## Körpələrin siması dəyişə bilər

Niderlandda aparılan tədqiqatın nəticələri hamilə qadınları ciddi şəkildə düşünməyə vadar edəcək. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, tədqiqatla bağlı açıqlama verən Rotterdam Erasmus Tibb Mərkəzinin professoru Gennadi Roscupkin hamiləlikdən öncə, hətta ən kiçik miqdarda spirtli içkinin gələcək körpənin simasında dəyişikliyə səbəb olacağını deyib. Tədqiqat zamanı məlum olub ki, hətta hamiləlikdən 3 ay əvvəl spirtli içki qəbul edilərsə, bu, hamiləlik dövründə dölün inkişafına mənfi təsir göstərməklə yanaşı, körpənin üz cizgilərinin deformasiyaya uğramasına səbəb ola bilər. Mütəxəssislər bildirir ki, körpənin siması "sağlamlıq güzgüsü"dür. Doğulacaq körpənin nə dərəcədə sağlam olması onun üz cizgiləriylə müəyyən edilir. Nəinki hamiləlik dövründə, hətta hamiləlikdən öncə də spirtli içki qəbul etmiş qadınların körpələrinin üz cizgiləri dölün inkişafı mərhələsində dəyişə bilir. Hamiləlik dövründə spirtli içki qəbulunun körpənin əqli inkişafına mənfi təsir etdiyi tibb aləminə məlumdur. Uzun zamandır mütəxəssislər spirtli içki qəbulunun körpədə daha hansı fəsadlara yol aça biləcəyini araşdırırdı. Niderlandda aparılmış tədqiqat məhz bu problemi ortaya çıxarıb. Məlum olub ki, hətta hamiləlikdən öncə də spirtli içki qəbulu körpələrin simasında müxtəlif dəyişikliklər yaradır.



Ümumdünya Səhiyyə Təşkilatı da xəbərdarlıq edir ki, dölün inkişaf etməmiş qaraciyərinin spirtli içkiyə nə dərəcədə dözə biləcəyi məlum deyil. Bununla bağlı araşdırma aparılmayıb. Bunu nəzərə alaraq ana olmağa hazırlaşan, bunu istəyən, arzulayan qadınlar spirtli içkidən tamamilə imtina etməlidirlər. Tədqiqat sırasında 9 yaşlı 5 mindən artıq və 13 yaşlı 2 min 500 uşağın fotoları simalarındakı 200 fərqli nöqtələri tanıya bilən süni intellekt vasitəsilə incələnib. Və analardan hamiləlik öncəsi və hamiləlik zamanı nə qədər spirtli içki qəbul etdikləri soruşulub. Fotolardakı dəyişikliyə uyğun olaraq müəyyənləşib ki, hamiləlikdən öncə də, hamiləlik zamanı da spirtli içki qəbul etmiş qadınların körpələrinin simasında dəyişiklik əmələ






gəlib. Bu da ən kiçik miqdarda spirtli içki qəbulunun körpənin simasında mənfi dəyişiklik yaratdığını sübut edir.

**Məlahət Rzayeva**



# Əhalinin fiziki aktivliyi artsa...

### Aİ ölkələrinə ildə 8 milyard avroya qənaət imkanı verə bilər

**İnsanların fiziki aktivliyi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyə etdiyi səviyyəyədək artırması Avropa İttifaqı (Aİ) ölkələrində 2050-ci ilədək 11,5 milyon yeni qeyri-infeksion xəstəlik hallarının (QİX) qarşısını almağa və ildə 8 milyard avro qənaət etməyə imkan verəcək. Buraya, həmçinin, 3,8 milyon ürək-damar xəstəlikləri, 3,5 milyon depressiya halları, təqribən 1 milyon ikinci tip diabet və 400 mindən çox müxtəlif növ onkoloji xəstəliklər daxildir.**

**ÜST həftə ərzində ən azı 150 dəqiqə orta intensivlikdə fiziki fəaliyyət tövsiyə edir**

Trend-in məlumatına görə, bu barədə ÜST və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) bu gün dərc edilmiş hesabatında deyilir.

"Hesabatımız fiziki fəaliyyətin təşviqi siyasətinin uğurlu olduğundan xəbər verir: o, xoşbəxt və sağlam həyata səbəb olmaqla yanaşı, səhiyyə sisteminin və cəmiyyətin xərclərini azaldır. Aİ ölkələri insanların fiziki aktivlik səviyyəsinin artması və QİX yükünün azalması sayəsində ildə təqribən 8 milyard avro qənaət edə bilər", - hesabatın yekunlarını şərh edən OECD-in baş katibinin müavini Ulrik Vesterqord Knudsen deyib və ildə 8 milyard avronun Litva və Lüksemburqun toplam illik səhiyyə xərclərindən çox olduğunu bildirib.

Son sorğulara görə, Aİ-nin hər üçüncü sakininin fiziki aktivlik səviyyəsi lazımi səviyyədə deyil, 45% insan isə heç vaxt məşq etmədiyini və idmanla məşğul olmadığını deyir. ÜST həftə ərzində ən azı 150 dəqiqə orta intensivlikdə fiziki fəaliyyət tövsiyə edir.

"Hesabata görə, fiziki aktivliyi təşviq edən siyasətə investisiyalar təkcə şəxsi rifahı və əhalinin sağlamlığını yaxşılaşdırmır, həm də iqtisadi qazanc gətirir", - ÜST-ün Avropa Regional Bürosunun direktoru Hans Klyuge qeyd edib. "Fiziki fəaliyyətə qoyulan hər bir avro təqribən ikiqat - 1,7 avro - iqtisadi qazanc gətirir. Aktiv fəaliyyətin üstünlüklərini təbliğ etməliyik, üstəlik söhbət təkcə fiziki üstünlüklərdən deyil, həm də psixi sağlamlıq, ətraf mühit və ÜST-ün Avropa regionunda cəmiyyət üçün faydalarından gedir", - o əlavə edib.

## Qırmızı Meydanda buzov gəzdirən ABŞ vətəndaşı

### Onun Rusiyaya girişi 40 il qadağan olundu



**Moskva Polisinin Miqrasiya Xidməti Qırmızı Meydanda buzov gəzdirən ABŞ vətəndaşı Alisiya Dayın 40 il müddətinə Rusiyaya girişinə qadağa qoymaq qərarına gəlib.**

"9 avqust 1988-ci il təvəllüdlü ABŞ vətəndaşı Day Alisiyanın 2063-cü il fevralın 13-dək Rusiya Federasiyasına girişinə icazə verilməməsi barədə qərar qəbul edilsin", - Troitski məhkəməsində elan edilən hökmdə bildirilib.

Oxu.az xəbər verir ki, amerikalıya münasibətdə lazımi protokol tərtib edilib. O, Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 18.8-ci maddəsi ("Xarici vətəndaşın Rusiya Federasiyasına giriş rejimini pozması") üzrə ittiham olunub. Belə ki, qadın Rusiyada qeydiyyatsız yaşayıb.

Day cümə axşamı jurnalistlərə bildirib ki, o, Rusiyanı tərk etmək qərarına gəlib.

## Dünyada iqlim dəyişikliyi insan psixikasını pozur



**Həddən artıq isti, yağıntı, soyuq rütubət və digər i hadisələr insanlarda depressiya və narahatlıq kimi psixi sağlamlıq pozğunluqlarını artırır.**

"Medicina" xəbər verir ki, alimlər Banqladeşdə iqlimlə əlaqəli və sosiodemoqrafik əlaqələri araşdıib.

Nəticələr göstərib ki, iqlim dəyişikliyi pisləşdikcə, temperatur və rütubət artmağa davam edəcək, həmçinin ekstremal daşqın kimi təbii fəlakətlər psixi sağlamlığa pis təsir göstərəcək.

Xüsusilə qadınlarda depressiyaya daha çox həssaslıq müşahidə olunub.

"İqlimin pozulmasının fiziki təsirləri daha çox diqqəti cəlb edir. Psixoloji yüklər çox vaxt gizli qalır, şüursuz şəkildə insanların həyatının hər bir sahəsinə sızır və tədricən psixi gərginlik artır. Məlumatlılığın az olması səbəbindən onları müalicə etmək olduqca çətindir", - deyə Liz Sasteren bildirib.

Qeyd edib ki, belə tədqiqatlar iqlim böhranının çətinliklərini yaşayan insanların sağlamlığı və gələcəyi üçün yüksək qiymətləndirilməlidir. Çünki ətraf aləmdə fırtınalar nə qədər pis olsa da, içimizdə yaranacaq fırtınalardan daha pis ola bilməz.

## İranda müəllim şagirdləri ilə mahnı oxudu, işdən qovuldu



**İranın Mazandaran vilayətinin Qaimşəhr şəhərində müəllim sinifdə şagirdləri ilə mahnı oxuduğuna görə vəzifəsindən kənarlaşdırılıb.**

**Qafqazinfo xəbər verir ki, gənc müəllimin şagirdləri ilə vulqar hesab edilən mahnı oxuduğu iddia edilir.**

**Sinifdə lentə alınan video sosial şəbəkələrdə sürətlə paylaşılaraq gündəm olub. Bunun ardınca Mazandaran vilayətinin təhsil idarəsi müəllimi vəzifəsindən azad edib. Bununla yanaşı, hazırda videonun çəkildiyi məktəbin lisenziyasının ləğv edilməsi məsələsi müzakirə edilir.**

## Türkan Şoray da yardımlara qoşuldu



**Türkiyədə baş verən güclü zəlzələnin qurbanlarına edilən yardımlara qoşulanlardan biri də aktrisa Türkan Şoraydır.**

**Axşam.az xəbər verir ki, aktrisa zərərçəkənlərin ehtiyaclarını ödəmək üçün 1000 ədəd olamaqla uşaq ayaqqabısı, ədyal, qızdırıcı və 500 ədəd corabı zəlzələ qurbanlarının olduğu bölgəyə göndərib.**

**Qeyd edək ki, yardım kampaniyası çərçivəsində bir çox türkiyəli məşhur ianə də edib.**